www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  29 sentyabr 2014-cü il  Bazar ertəsi  № 242 (5951)  Qiyməti 40 qəpik

**Xəbər**

## Azərbaycanlı Marsa uçmağa hazırlaşır

yazısı səh.3-də

**Gündəm**

### BMT divarları arasında kritik Qarabağ müzakirələri



Düşmən ölkə başçısının dünya birliyini aldatmaq cəhdləri fiasko oldu; Sərkisyanın Ərdoğandan alması olduğu cavab Məmmədyarovdan gəldi, prezidentlərin növbəti görüşü sual altında...

yazısı səh.7-də

### Bir ailədən iki şəhid: evin tək oğlu olan zabit torpağa tapşırıldı...

yazısı səh.3-də

*Ekspert:*

### "Rusiya Qarabağın açarını elə dərinlikdə gizlədib ki..."

yazısı səh.11-də

### Siyasi və vicdan məhbuslarından ən son xəbərlər

yazısı səh.4-də

### İŞİD-lə "üzücü mübarizə"ni zəruri edən ilginc səbəblər

yazısı səh.3-də

### Başqanlığa namizəd olanlar Arif Hacılının qələbəsini tanıdılar

Qubad İbadoğlu tərəfdarlarına səsləndi...

yazısı səh.6-da

### Putindən şok yasaq - Rusiyada sosial şəbəkələr qapadılır...

yazısı səh.7-də

### Təbriz və Güneyin digər şəhərləri boşala bilər

yazısı səh.15-də

### Qarabağ qazisi əməliyyat üçün dövlətdən kömək istədi

yazısı səh.12-də

### Kreml Xəzər dənizini sürətlə hərbiləşdirir

yazısı səh.11-də

### Toylarda da israfçılığa "müharibə" elan olundu

yazısı səh.14-də

### Bu gün ölkə üzrə hava kəskin soyuyacaq

yazısı səh.2-də

## Bakı-Vaşinqton münasibətləri üçün daha bir test

# ABŞ AZƏRBAYCANA BURAXILMAYAN DİPLOMATINI YENİDƏN GÖNDƏRİR - XƏBƏR, ŞƏRH

İqtidarın Rusiyaya aramsız reveransları Amerikanı, nəhayət, hərəkətə gətirdi; dövlət katibinin köməkçisi Con Melia Jirinovski kimi yüksək səviyyədə qarşılanıb qəbul ediləcəkmi; "Kreml təlxəyi" hədə ilə gəlmişdi, bəs Kerrinin insan haqları üzrə müavininin çantasında nə olacaq?..

yazısı səh.4-də



27.09.2014, Bakı

# 6-cı başqanın 228 səsi - Arif Hacılı Müsavata necə rəhbər oldu...

Müsavat Partiyası VIII qurultayını keçirdi; İsa Qəmbər: "Yüz ildir ki, xalqımız bu yolu gedir"...

yazısı səh. 8-9 və 16-da



### Müsavatın yeni başqanı ilk müsahibəsini "Yeni Müsavat"a verdi

yazısı səh.5-də



### İlham Mirzəyev dələduzluq əməllərini boynuna alıb

yazısı səh.13-də



### Vidadi İsgəndərlidən nəqliyyat nazirinin məmur qohumuna şok ittihamlar...

yazısı səh.10-da

**29 sentyabr 2014**



## "Xorasan" liderinin öldürüldüyü təsdiqləndi

**"Xorasan" qruplaşmasının lideri Muhsin əl-Fadli öldürülüb. axar.az "RİA-Novosti"yə istinadən xəbər verir ki, bu açıqlamanı "Əl-Qaidə" terror təşkilatı yayıb. Məlumatda əl-Fadlinin sentyabrın 23-də ABŞ təyyarəçilərinin bombardmanı zamanı həlak olduğu deyilib.**

Qeyd edək ki, bundan öncə də "Xorasan" liderinin öldürüldüyü haqqında xəbər yayılmışdı.

## Bu gün hava kəskin soyuyacaq



**Həftənin ilk iş günü Azərbaycan ərazisində hava kəskin pisləşəcək, bəzi ərazilərdə intensiv yağışlar yağacaq, güclü külək əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Trend"ə bildiriblər ki, sentyabrın 29-də Bakı və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək, yağış yağacaq. Yarımadanın bəzi ərazilərində intensiv olacağı ehtimalı var.**

Şimal-qərb küləyinin güclənəcəyi, bəzi ərazilərdə isə şiddətlənəcəyi proqnozlaşdırılır. Bakı və Abşeron yarımadasında sentyabrın 29-da havanın temperaturu gecə 11-13, gündüz 16-18 dərəcə isti olacaq. Azərbaycanın rayonlarında da havanın temperaturu 5-10 dərəcə enəcək. Bəzi ərazilərdə yağış yağacaq, əsasən gecə və axşam saatlarında şimşək çaxacaq, səhər ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi arabir güclənəcək. Aran rayonlarında havanın temperaturu gecə 9-12, gündüz 17-20 dərəcə isti olacaq.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Müsavat Partiyasının qurultay üzvü vəfat edib



**Müsavat Partiyasının qurultay üzvlərindən biri vəfat edib. Bu barədə tədbirin gedişində başqan İsa Qəmbər məlumat verib. Musavat.com-un məlumatına görə, Malik Əhmədov qurultaya gəlməyə hazırlanarkən qəfildən evində vəfat edib. O, sentyabrın 27-də dünyasını dəyişib.**

Əhmədov Malik Qafur oğlu 1950-ci il təvəllüdlüdür. O, 1994-cü ildən Müsavat Partiyasının üzvüdür. Saatlı rayonundan qurultay üzvü idi, rayonun ağsaqqallarından sayılırdı.

Allah rəhmət etsin.

❑ RÖYA




## Şimali Koreya Cənubi Koreya ilə birləşmək istəyir

### Ancaq ortada mühüm bir şərt var...

**Şimali Koreya Xalq Demokratik Respublikasının (ŞKXDR) xarici işlər naziri Lİ Su En BMT-nin 69-cu sessiyasında çıxışı zamanı bildirib ki, Şimali Koreya Cənubi Koreya ilə birləşməyə hazırdır. Bu barədə Rusiyanın "İTAR-TASS" agentliyi sentyabrın 28-də məlumat yayıb.**

ŞKXDR təkid edir ki, bu iki dövlətin birləşməsi müxtəlif sahələrdə (xüsusən siyasi müstəvidə) qarşıdurmaların yaranması ilə müşahidə olunmamalıdır. Birlik formatı konfederasiya anlayışının ehtiva etdiyi çərçivədə həyata keçməlidir. Yəni birləşmiş ölkədə iki fərqli siyasi sistem mövcud olmalıdır",-sosialist Koreyanın baş diplomatı belə deyib.

Eyni zamanda, ənənəyə sadiq qalan xarici işlər naziri ABŞ-ı ittiham edib. O bildirib ki, Amerika ŞKXDR-in suverenliyinə və mövcudluğuna təhlükə təşkil edir. Belə ki, Amerika ŞKXDR-i müxtəlif vasitələrlə "boğmağa" çalışır. Nazirin sözlərinə görə Koreya yarımadasında nüvə problemi öz həllini tapa bilər. Bunun üçün ABŞ ŞKXDR-ə qarşı yeritdiyi siyasətdən əl çəkməlidir.

Xatırladaq ki, yaranan ilk gündən hakimiyyətə gəlmiş Koreya Əmək Partiyası ölkədə planlaşdırılan iqtisadiyyat sistemi qurub. 1949-cu ildən bütün sənaye sahələri, o cümlədən daxili və xarici ticarət dövlət nəzarətindədir. Rəsmi Pxenyan bazar iqtisadiyyatına söykənən və dünyanın öncül iqtisadi modellərindən birinə sahib olan Cənubi Koreyaya qarşı düşmənçilik siyasəti yeridir. Nəticədə siyasi baxışlara görə ikiyə bölünmüş koreya xalqı uzun illərdir ki, arzuladığı birliyə nail ola bilmir.

Dünyanın ən qapalı ölkəsi sayılan Şimali Koreyanın gənc lideri Kim Çen In babasından gələn iqtidarı atasından aldıqdan sonra ara-sıra vahid Koreya dövlətinin yaranması ilə bağlı çağırışlar edir. Ancaq hələ ki, bu kimi çağırışlar söz olaraq qalır.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

## Lavrov: "Amerikalıları məcbur edə bilmərik ki"...

### Rusiya ilə ABŞ arasındakı münasibətlər buz dövrünə qədəm qoyub



**"Mən mütəmadi şəkildə ABŞ-ın dövlət katibi Con Kerri ilə əlaqə saxlayıram. Əlbəttə, əlaqələr üçün başqa kanallar da var. Bu əlaqələrdən biz kənarlaşmırıq, ancaq biz amerikalıları məcbur edə bilmərik ki, onlar bizimlə dost olsunlar", Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov belə deyib. Bu barədə "İTAR-TASS" agentliyi xəbər verir.**

"Əsas problem ondadır ki, biz münasibətlərin normallaşmasında qəti şəkildə maraqlıyıq, ancaq bu münasibətləri biz aradan qaldırmamışıq. İndi isə ortada olan gərginliyin aradan qaldırılmasına ehtiyac var. Ancaq Barak Obama administrasiyası hələ ki, buna maraq göstərmir. Bizim indi ABŞ-la münasibətimiz oğul Buşun prezidentliyinin son illərindəki kimi xoş deyil", Rusiyanın baş diplomatı deyib.

"Hazırda Obama administrasiyası ABŞ-la Rusiya arasında məhz onların zamanında yaranmış əlaqələri də dağıtmağa başlayıb. Yəqin ki, hələ bu istiqamətdə yeni şeylər də düşünəcəklər".

"Bir neçə il əvvəl prezidentlərə bağlı komissiya yaradılmışdı, onların çərçivəsində isə işçi qrupu formalaşdı. Bu qruplar sırasında terrora qarşı mübarizə, narkotik alveri, iqtisadi məsələlər, mülki cəmiyyətlər arasında əlaqələr özünə yer almışdı. Haradasa 20 işçi qrupu fəaliyyətdə idi və geniş sahələri əhatə edirdi. İndi həmin qrupların fəaliyyəti ABŞ-ın istəyi ilə dondurulub", bu barədə isə cənab Lavrov "RİA "Novosti"yə bildirib.

Agentlik xatırladır ki, Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov hələ iyun ayında bu məsələyə toxunaraq demişdi ki, Rusiya ilə ABŞ arsındakı ənənəvi əməkdaşlıq formaları Vaşinqtonun istəyi ilə dondurulub.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

## Güneydə erkən nikahlar və boşanmalar artıb

**Ailə qurmağı gecikdirmək gəncləri günah etməyə sövq edir. Əgər valideynlər övladlarının ailə qurması üçün şərait yaratmasalar, onların etdiyi günahlarda şərik olurlar. Təbii ki, dövlət məsulları da gənclərin ailə qurmasına şərait yaratmalıdırlar".**

Zəncanın müvəqqəti imam cüməsi axund Rza Musəvi Cümə namazı xütbələrində belə deyib. O bildirib ki, yetkinlik yaşı 15-dən 12-yə düşüb və bu məsələ həmin kəsim üçün bir sıra problemlər yaradır. (GünAz TV)

Qeyd edək ki, İranda zaman keçdikdə nikaha məcbur edilən uşaqların sayında ciddi artım müşahidə olunur. Mütəxəssislər bunu əsasən ailələrin mədəniyyət səviyyəsi, onların təhsil durumu və iqtisadi böhranla əlaqələndirirlər.

Şərqi Azərbaycan Vilayətinin Gənclər və İdman Mərkəzi İdarəsinin müavini keçən günlərdə bildirib ki, ötən il bu vilayətdə 4488 erkən nikaha rast gəlinib. Nikaha girən qızların yaşı 15-dən az olub. 15 yaşdan az nikaha daxil olanların arasında 6 oğlanın da adı qeydə alınıb. Leyla Cavidan son illərdə boşanmalarda da ciddi artımın müşahidə olduğunu diqqətə çatdırıb.

❑ Cavid TURAN



## Ukrayna prezidenti Allaha gedən yoldan danışdı

### "Anamın tabutunun başında olanda"...

**Ukrayna prezidenti Pyotr Poroşenko kilsəyə və Allaha gedən yolundan söhbət açıb. Bir neçə mənbə tərəfindən yayılan bu xəbər "1+1" Telekanalına istinadən verilib.**

"Hər bir insanı Allaha doğru aparan həyatında baş verən önəmli bir hadisədir. Mənim üçün belə bir hadisə anamın ölümü ilə bağlıdır. Həmin vaxtı bütün günü Allah evində, anamın tabutunun başında keçirməyimə mənəvi ehtiyac duydum. Bax elə o vaxt içimdə-daxili dünyamda ciddi təbəddülat baş verdi. Onda kilsəyə getmək üçün daxili bir tələbat yarandı. Dua etməyə, Allahdan yardım istəməyə ehtiyacım ortaya çıxdı", Ukrayna lideri deyib.

Pyotr Poroşenko bildirib ki, o, hər gün dua edir, bütün dini qaydalara diqqətlə yanaşır. Dini ritualların icrasına xüsusi önəm verir: "Əsas odur ki, insan özünə məxsus qaydada Allaha gedən yolu tapsın. Kilsəyə gedən yolu tapsın. Dua etməyə olan mənəvi ehtiyacını ödəsin. Heç olmasa, bazar günləri dini məsələlərə vaxt ayırmaq lazımdır".

Qeyd olunur ki, Pyotr Poroşenko Moskva patriarxatına tabe olan Ukrayna pravoslav kilsəsinə bağlı dindarlardan biridir.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

## Almaniya öz ərazisində kürd silahlılarına təlim keçəcək

**İŞİD terrorçu qruplaşmasına qarşı koalisiya qüvvələri mübarizə üsullarını genişləndirir. Almaniya da istisna deyil.**

Musavat.com-un məlumatına görə, bu arada bəlli olub ki, Bundesver Almaniya ərazisində 30 kürd silahlısına təlim keçəcək. Xəbəri "Deutsche Welle" nəşri yayıb. Kürdlər Berlinin onlara verdiyi silahlardan istifadə qaydalarını öyrənəcəklər. Söhbət həmçinin, "Milan" raket əleyhinə sistemlərdən gedir.

Buna qədər Bundesver belə təlimləri İraq ərazisində keçirdi.

❑ Musavat.com



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Bir ailədən iki şəhid: evin tək oğlu olan zabit torpağa tapşırıldı





**Dünən şəhid olan zabitimiz, leytenant Allahverdi Baxışlı Əbülfəz oğlu dəfn edildi. anspress-in məlumatına görə, şəhid doğulduğu Hacıqabul rayonunda torpağa tapşırıldı.**

Erməni silahlı bölmələrinin atəşkəs rejimini növbəti dəfə pozması nəticəsində dünyasını dəyişən 23 yaşlı şəhidimizin atası Əbülfəz Baxışlı 20 il əvvəl birinci Qarabağ müharibəsində şəhid olub. Allahverdi evin tək oğlu idi. Anası və bacısından ibarət olan ailə başsız qaldı.

Allahverdi Baxışlı Əbülfəz oğlu Cəmşid Naxçıvanski adına hərbi liseyin və Heydər Əliyev adına Azərbaycan ali hərbi məktəbin məzunudur.

Xatırladaq ki, sentyabrın 27-də saat 10.25 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozaraq mövqelərimizi atəşə tutublar. Düşmən tərəfindən atılan atəşdən leytenant Baxışlı Allahverdi Əbülfəz oğlu döyüş postunda şəhid olub.

Allah rəhmət eləsin!

# İŞİD-lə "uzun mübarizə"ni zəruri edən ilginc səbəblər

## Orxan Qafarlı: "Yaxın Şərqdə yeni, mürəkkəb bir dövr başlayır..."

**ABŞ rəhbərliyi bəyan edib ki, İŞİD-ə qarşı mübarizə uzun illər davam edə bilər. Prezident Obama bir neçə gün əvvəl bu barədə xəbərdarlıq edib. ABŞ müdafiə naziri Çak Heygel isə bildirib ki, İŞİD-ə qarşı savaş uzun zaman ala bilər. O, hava hücumları ilə yanaşı iqtisadi-diplomatik yollarla da mübarizə aparılacağını qeyd edib.**

Amerikalı generallar hava zərbələrinin İŞİD-i zəiflətdiyini, ancaq bununla yanaşı qruplaşmanın hələ uzun müddət mövcudluğunu qoruyub saxlayacağını bildirirlər. Bunun əsas səbəblərindən biri kimi, İŞİD-ə qarşı quru əməliyyatlarının planlaşdırılmamasıdır. Təbii ki, hava hücumlarından zərbələr alan İŞİD liderləri getdikcə, hava hücumundan qorunma taktikalarını



Orxan Qafarlı

daha da inkişaf etdirəcəklər.

Yeri gəlmişkən, bu günlərdə məlum olub ki, İŞİD-i bombalamaq üçün Səudiyyə Ərəbistanından havaya qalxan iki hərbi təyyarənin pilotları qırıcıları Suriyanın Rakka şəhərindəki İŞİD-in nəzarətində olan hərbi bazaya endiriblər. Bu və digər oxşar hadisələr İŞİD-ə qarşı müharibənin uzun zaman alacağını göstərir.

Bundan başqa, bir sıra bölgə mütəxəssislərinə görə, İŞİD-ə qarşı müharibə uzun müddət davam edəcək və Yaxın Şərqin xəritəsində ciddi dəyişikliklərə səbəb olacaq. Əlbəttə, hələlik bütün bunlar iddia və versiyalardır. Ancaq istənilən halda Yaxın Şərqdə böyük anti-terror müharibəsi başlayıb.

Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Orxan Qafarlı deyir ki, Yaxın Şərqdə İŞİD qarşı formalaşan koalisiyanın əsas zərbə qüvvəsini ABŞ-la birlikdə ərəb ölkələri təşkil edəcək. Ekspertin fikrincə, Vaşinqton xüsusilə ərəb dövlətlərinin bu prosesdə iştirakında maraqlıdır: "Digər tərəfdən, ərəb ölkələri arasında rəqabət və İran, İraq və Türkiyə arasında IŞİD məsələsində fikir ayrılığı bu müharibənin uzun zaman sürəcəyinə işarədir".

O.Qafarlı deyir ki, Türkiyə ilə İraq arasında IŞİD məsələsində fikir ayrılığının daha dərin kökləri var. Ankaranın İraqdakı kürd və sünni siyasi qrupları dəstəklədiyini deyən O.Qafarlıya görə, belə bir durum İraqda şiə qruplarının etirazına səbəb olub: "Lakin 101 günə yaxın IŞİD-in girovluğunda qalan türk diplomatlarının mobil telefonla danışdıqları zaman bir neçə dəfə yerlərinin İraq hökuməti tərəfindən müəyyənləşməsi və havadan atəşə tutulmaları, Bağdadın Ankara ilə münasibətlərinin nə qədər bərbad durumda olduğunu göstərir. İraqla Türkiyə arasında münasibətlərin bu səviyyədə bərbad olması hər iki ölkənin İŞİD-dən bir



birilərinə təzyiq vasitəsi kimi istifadə edəcəyindən xəbər verir".

Ekspertin fikrincə, İŞID məsələsində digər önəmli məsələ Türkiyənin fərqli maraqlarının səbəbindən ABŞ-ın Yaxın Şərqdə gücləri balanslamaq üçün İranla yaxınlaşması faktorudur. O.Qafarlıya görə, ərəb ölkələri ABŞ-ın İranla yaxınlaşmasından o qədər narahatdırlar ki, hətta IŞİD-in mövcudluğunun nəzarət altında davam etdirməsinə şərait yaratmağı düşünürlər: "Səudiyyə Ərəbistanı və Ərəb Əmirliklərində belə bir təəssürat yaranır ki, regionda ABŞ-İran yaxınlaşması və İŞID məsələsində əməkdaşlıqdan İran qazanacaq. Belə bir təcrübə İraq savaşından sonra yaşandı. O zaman İran ABŞ münasibətlərinin perspektivi yox idi, lakin Tehran İraq üzərində strateji qələbəsini cala bildi".

O.Qafarlı deyir ki, Yaxın Şərqdə yeni dövrdə Səudiyyə Ərəbistanı ilə İsrail arasında strateji yaxınlaşma baş verəcək. Ekspertin fikrincə, hər iki dövlət İŞID-in qorunub saxlanılması və Əfqanistan Talibanı kimi idarə edilən bir gücə çevrilməsini istəyəcəklər: "Bu, ilk növbədə ərəb ölkələrindən terrorçuların İŞİD-ə qoşulmalarını təmin edəcək. Bununla da ərəb iqtidarları ciddi daxili təhdidlərdən qoruna və daxili sabitliyə nail ola biləcəklər. İkincisi, regionda İran, İraq və Türkiyəni güclənməsinin qarşısını alacaq. Ərəb ölkələri İran kimi, Türkiyənin güclənməsini də istəmirlər. Bunun çox məntiqi cavabı var onlar üçün. Türkiyə və Qətər "Müsəlman Qardaşları" dəstəkləyir. "Müsəlman Qardaşlar" isə təfəkkür olaraq İranla daha yaxın olan təşkilatdır. Ərəblər üçün bu təhlükələri uzatmaq və İsraillə bu məsələdə əməkdaşlıq etmək uyğundur. Eyni zamanda uzun zamanda dayanan belə bir savaş neft qiymətlərinin bahalaşmasına imkan verəcək. Çünki Avropa və ABŞ son dönəmlərdə neftin qiymətlərini aşağı salınmasını üçün addımlar atmaqda niyyətli idi. Neft qiymətlərinin ucuzlaşması Rusiya iqtisadiyyatına zərbə endirəcəkdi. Göründüyü kimi, proseslər xeyli dərəcədə mürəkkəbdir".

❑ KƏNAN



Allen Mirqədirov

# Azərbaycanlı Marsa uçmağa hazırlaşır

## Allen Mirqədirov NASA-nın uçuşların təhlükəsizliyi şöbəsində aerokosmik mühəndis vəzifəsində çalışır...

**ABŞ-ın Havay ştatında yerləşən Kosmik Ekspedisiyalar üzrə Analoq və Modelləşdirmə mərkəzi (Hİ-SEAS) Mars planetinə uçmaq üçün 6 astronavtdan ibarət heyətin seçildiyini və onların 8 aylıq hazırlıq kursuna başlayacağını elan edib. Virtualaz.org saytı bu haqda mərkəzdən yayılan rəsmi press-relizə istinadən xəbər verir.**

Mərkəz bildirir ki, astronavtlar oktyabrın 15-dən etibarən xüsusi kapsulda ətraf aləmdən təcrid olunacaq və səkkiz ay ərzində bu kapsulu tərk etmədən Mars planetinə kosmik ekspedisiyanı modelləşdirəcəklər.

Marsa uçmaq üçün kosmik ekspedisiyanın hazırlanması proqramını Amerikanın Milli Aerokosmik Agentliyi (NASA) maliyyələşdirir. 8 ay ərzində ekipaj xüsusi kapsulun içində videomüşahidə altında olacaq, onların orqanizmlərində baş verən proseslər barədə müntəzəm məlumatlar alınacaq.

Hİ-SEAS "qırmızı planet"ə uçmaq üçün seçilən ekspedisiyanın üzvlərinin siyahısını açıqlayıb. Olduqca maraqlıdır ki, heyət üzvləri arasında bir azərbaycanlı da var. Heyətə bunlar daxildir:

Nil Scheybelhut (Neil Scheibelhut) Havay Universitetinin məzunudur. Molekulyar biologiya üzrə bakalavr dərəcəsinə malikdir. ABŞ-ın İraqda apardığı müharibənin veteranıdır və hazırda Los-Ancelesdə mikrobioloq işləyir. O, İndiana ştatında anadan olub.

Coeslin Dann (Jocelyn Dunn) Perdyu Universitetində fəlsəfə doktorluğuna namizəddir. Onun dissertasiyası qərarların qəbulunun dəstəklənməsi və sistemlərin təkmilləşdirilməsi üçün məlumatların real zaman rejimində analizi haqdadır. C.Dann Florida ştatında anadan olub. O, həmçinin Embri-Riddl Universitetini aviasiya-kosmik texnika ixtisası üzrə bitirib, bu ixtisas üzrə bakalavr dərəcəsinə malikdir. Həmçinin, Perdyu Universitetindən biotibbi mühəndislik ixtisası üzrə magistr dərəcəsi alıb.

Allen Mirqədirov NASA-nın uçuşların təhlükəsizliyi şöbəsində (Virciniya ştatı) aerokosmik mühəndisdir. Onun əsas fəaliyyəti orbital və suborbital missiyalarla bağlıdır. Bundan əvvəl Mirqədirov 10 il ABŞ Hərbi-Hava Qüvvələrində zabit kimi xidmət edib. O, SSRİ dövründə Bakıda - Azərbaycanın paytaxtında anadan olub. Hazırda isə Arizona ştatının Finiks şəhərində yaşayır.

Sofi Milam Havay Universitetinin məzunudur, fizika və astronomiya üzrə bakalavr dərəcəsi alıb. Hazırda Aydaho Universitetində aspirantdır. Milam Texas ştatının San-Antonio şəhərində anadan olub, hazırda Kaliforniya ştatında, NASA-nın Intelligent Robotics Group (Ağıllı Robotlar Qrupu) mərkəzində işləyir.

Zak Uilson (Zak Wilson) heyət üzvləri arasında analoq araşdırmalar sahəsində iş təcrübəsinə malik yeganə şəxsdir. O, Yuta ştatında "Mars Desert" stansiyasında iki həftəlik missiyada mühəndis kimi iştirak edib. London Kral Kollecinin məzunudur, kompozit materiallar ixtisasına yiyələnib və bundan əvvəl stress-analitik işləyib. Kolorado ştatında anadan olub.

Qeyd edək ki, NASA yaxın illərdə Marsa astronavtlar göndərməyə hazırlaşır və bu proqrama milyardlarla dollar xərcləyir. İndiki kosmik gəmilərin sürəti ilə hesablayanda Marsa uçmaq üçün 8 ay vaxt tələb olunur. Bu səbəbdən NASA 8 aylıq uçuşa insanın necə tab gətirə biləcəyini araşdırır. Göründüyü kimi, bu tarixi ekspedisiyanın üzvlərindən biri də keçmiş bakılıdır.

Googleda axtarış apardıq və Allen Mirqədirovun bir neçə kiçik fotosuna rast gəldik. Bu fotoların birində o, Bakıdadır və çox güman ki, fotonu doğulduğu binanın qarşısında çəkdirib. Çünki fotoda Bakının "xruşşovka"larına bənzəyən binalardan birinin girişi təsvir olunub və orada "Blok 2, mən. 58" yazılıb.

## Bakı-Vaşinqton münasibətləri üçün daha bir test

**Rəsmi Bakının Vaşinqtonla münasibətlərində qeyri-müəyyənlik, ziqzaqvari mərhələ davam edir. Əlaqələrin məhz ziddiyyətli xarakter daşıdığına son bir həftə ərzində izlədiyimiz ən azı üç mühüm hadisə şübhə yeri qoymur.**



# ABŞ Azərbaycana buraxılmayan diplomatını yenidən göndərir - xəbər, şərh

### İqtidarın Rusiyaya aramsız reveransları Amerikanı, nəhayət, hərəkətə gətirdi; dövlət katibinin köməkçisi Con Melia Jirinovski kimi yüksək səviyyədə qarşılanıb qəbul ediləcəkmi; "Kreml təlxəyi" hədə ilə gəlmişdi, bəs Kerrinin insan haqları üzrə müavininin çantasında nə olacaq?..

Onlardan biri Avropa Parlamentinin Azərbaycan iqtidarını ölkədə demokratiya və insan haqlarının durumuna görə sərt tənqid edən qətnaməsi oldu. Təbii ki, hakimiyyət düşərgəsindən buna dərhal, kifayət qədər yüksək səviyyədə kəskin tənqid gəldi. Az sonra dünyanın 1 nömrəli dövlətinin - ABŞ-ın prezidenti Barak Obama Azərbaycanın (oxu: iqtidarın) ünvanına publik şəkildə tənqid səsləndirdi, ölkədə vətəndaş cəmiyyəti institutları üçün dözülməz şəraitin mövcud olduğunu xüsusi qabartdı.

Görünür, bu da rəsmi Bakının "səbir kasası"nı dolduran son damla oldu və belə bir fonda qəfildən qalmaqallı imici ilə tanınan qatı antiqərbçi, Amerika və Avropaya giriş-çıxışı yasaqlanmış Vladimir Jirinovskinin Bakı səfəri ildırım sürətilə reallaşdı. Halbuki, səfərin təxirə salındığı bildirilmişdi.

Məntiq ardıcıllığı LDPR liderinin səfərinin də Bakıdan Qərbə növbəti və açıq mesaj xarakteri daşıdığını diktə edir. Doğrudan da, "Kremlin danışan dili" olduqca sıcaq, az qala prezident qismində qarşılandı və saygı ilə əhatə edildi, Azərbaycan prezidenti səviyyəsində qəbul olundu, paytaxtımızda Rusiyanın və rus dilinin, rus atributlarının təbliğinə hesablanmış görüşlərə qatıldı. Və ən əsası: dedi ki, "Azərbaycan-Rusiya münasibətləri tezliklə daha yüksək səviyyəyə qaldırılmalıdır".

Yeni sadə dilə tərcümə eləsək, açıq şəkildə söylədi ki, Azərbaycan Putinin Avrasiya layihələrinə qoşulmalıdır. Di gəl, əsas problemimiz olan Qarabağ məsələsi ilə bağlı xeyrimizə o, bir kəlmə də danışmadı, problemin ərazi bütövlüyümüz çərçivəsində həllinin vacibliyini formal şəkildə də olsa dilə gətirmədi. Yalnız "konfliktin açarı Rusiyadadır... Hər şey yaxşı olacaq" sözləri ilə yetərləndi.

Başqa sözlə, Azərbaycan Avrasiya və Gömrük ittifaqlarına qoşulsa, qərbyönlü kursdan tam imtina eləsə, bax, hər şey onda "yaxşı olacaq" - Moskvanın sonuncu emissarının sözünün məğzi bundan ibarət idi. Bir sıra siyasi müşahidəçilərə görə də Jirinovskinin səfəri əslində elə Bakıya təzyiq məqsədi daşıyıb. Lap dəqiqi, Putnin "hiyləgər təlxəyi" faktiki surətdə Azərbaycana Kremlin hədəsini çatdırıb.

İndi isə başqa bir məqama diqqət yetirək: LDPR lideri Azərbaycanda özünü komfortda hiss edib, faktiki surətdə antiqərb açıqlamaları verirkən, okeanın o tayından daha ilginc və maraqlı bir açıqlama gəlib. ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Con Melia "Azadlıq" radiosuna müsahibəsində bildirib ki, "prezident Obamanın Azərbaycana mülki cəmiyyətin problemləri ilə bağlı göndərilən mesajı dolğun informasiyalara əsaslanır". "Bu bəyanatı səsləndirməkdən öncə prezident Azərbaycanla bağlı yaxşı məlumatlandırılmışdı. Biz situasiyanı izləyirik və mən tezliklə Azərbaycana səfər edəcəyəm", - deyə o əlavə edib.

Xatırladaq ki, Ağ Ev rəhbəri qalmaqallı açıqlamanı Klinton Qlobal Forumunda çıxışı zamanı vermiş, QHT-lər üçün dözülməz əngəllər yaradılan ölkələrin sırasında Azərbaycanın da adını çəkmişdi. İqtidar rəsmiləri isə bu tənqidi qeyri-obyektiv kimi qiymətləndirmişdilər. Bunun ardınca Melianin ortaya qoyduğu fikirlər, şəksiz ki, Barak Obamanın hələ "soyumamış" bəyanatına Bakını daha da qıcıqlandıran bir izahatdır.

Yeri gəlmişkən, bu, o Con Meliadır ki, cəmi bir il öncə indiki statusunda Azərbaycana səfər eləmək istəsə də, ona ölkəmizə gəlməyə icazə verilməmişdi. Əcəba, budəfəki cəhd alınacaqmı? Yaxud alınsa, ona ən azından Jirinovski kimi, digər Moskva emissarları kimi lütfkarlıq göstəriləcəkmi? Nəhayət, Jironovskinin Bakıya nə ilə gəldiyi təxminən bəllidir, Con Kerrinin köməkçisinin çantasında görəsən nə(lər) olacaq?



Con Melia

Burada ancaq mülahizə yürütmək mümkün olduğu üçün, onlardan birini yazaq. Cənab Melia, heç şübhəsiz, Obamanın tənqidinin məntiqini təşkil edən tələbləri - QHT-lərə qarşı Azərbaycanda həyata keçirilən həbsləri durdurmağı və həbsdə olanların buraxılmasını - Azərbaycan iqtidarına çatdıracaq. Təbii ki, əgər onu Bakıya buraxsalar...

❑ Siyasət şöbəsi

# Siyasi və vicdan məhbuslarından ən son xəbərlər

### NİDA-çılar Ali Məhkəməni gözləyir, Leyla Yunusun işgəncəyə məruz qalması Arif Yunusdan gizlədilib; İntiqam Əliyevin qızı dindirilib

**Vəkil Elton Quliyev NİDA Vətəndaş Hərəkatının həbsdə olan üzvləri ilə görüşüb. E.Quliyevin "Yeni Müsavat"a verdiyi məlumata görə, sentyabrın 25-də Rəşadət Axundov, Rəşad Həsənov, Zaur Qurbanlı ilə görüşüb. Ondan əvvəl isə İlkin Rüstəmzadə və Üzeyir Məmmədliyə baş çəkib.**

Vəkilin sözlərinə görə, gənc məhbuslar saxlanma şəraitindən şikayətlənməyiblər, giley-güzar etməyiblər: "Onların əhval-ruhiyyəsi yüksəkdir. Apelyasiya Məhkəməsinin ilkin baxış qərarından Ali Məhkəməyə şikayət olunub, prosesin təyin olunacağı vaxtı gözləyirik".

E.Quliyev bildirib ki, Avropa Şurası prezidentinin Bakı səfərindən və ABŞ prezidentinin siyasi həbslərlə bağlı Azərbaycanın adını çəkməsindən sonra vəziyyətin dəyişəcəyinə böyük ümid yoxdur: "Hər şey siyasi iradədən asılıdır. NİDA-çı gənclərin azadlığa buraxılması üçün siyasi iradə olmalıdır. Avropa Şurasının təsir mexanizmi yoxdur. Sadəcə, çıxış edirlər, arzularını çatdırırlar və nəticəsiz qalır. Bunu hər dəfə söyləyirik. Hamı da yaxşı başa düşür.

Heç bir təzyiq rıçaqı yoxdur. Necə deyərlər, gün batır, bulud dolur, yağış yağır, sonra yenə göy üzü açılır, işıqlanır. Bax belə davam edir. Nə etmək olar? Siyasi iradədən asılı olan bir qərardır".



Leyla Yunus



Arif Yunus



İntiqam Əliyev



Qeyd edək ki, NİDA VH üzvləri kütləvi iğtişaşlar yaratmaqda ittiham olunaraq həbs ediliblər. Gənclərə 5-8 il arasında hökm oxunub.

Dövlətə xəyanətdə ittiham edilərək həbs olunan jurnalist Rauf Mirqədirov da saxlanma şəraitindən narazılıq etmir. Vəkili Fuad Ağayev qeyd etdi ki, MTN istintaq təcridxanasında saxlanan jurnalistin səhhətində ciddi bir problem yoxdur.

Vəkil hazırda istintaqın davam etdiyini və yekunu gözlədiklərini açıqladı. Onun sözlərinə görə, R.Mirqədirova oxumağa tənqidçi qəzetlərdən heç biri verilmir: "Bazar ertəsi onunla görüşdüm. Şəxsi istəklərini çatdırdı. Ona "İki Sahil", "Palitra", "Səs" və s. bu kimi qəzetlər verilir".

Vəkil Fariz Namazlı da Bakı İstintaq Təcridxanasında Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDTM) rəhbəri Anar Məmmədli ilə görüşüb. SMDT-dən "Yeni Müsavat"a verilən məlumata görə, QHT rəhbəri ona beynəlxalq təşkilatların nümayəndələri ilə görüş imkanı verilməməsindən şikayətlənib.

O deyib ki, bu günlərdə Bakıda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının sədri Ann Brassör Bakı İstintaq Təcridxanasında hüquq müdafiəçiləri ilə görüşmək istəyib, amma buna imkan verilməyib. Eyni zamanda indiyədək ATƏT, BMT, Avropa Birliyinin və digər beynəlxalq qurumların nümayəndələri onunla və həbsdəki digər hüquq müdafiəçiləri ilə görüşmək istəsələr də, buna şərait yaradılmayıb.

Vəkil Xalid Bağırov isə MTN təcridxanasında saxlanılan Sülh və Demokratiya İnstitutunun eksperti Arif Yunusa baş çəkib. "Mediaforum" saytına danışan vəkil deyib ki, A.Yunusun vəziyyəti stabildir: "Saxlanma şəraiti və səhhəti normaldır. Hər hansı şikayəti yoxdur. Yalnız qanunsuz olaraq tutulmasından şikayətçidir".

Vəkil açıqlamasında xatırladıb ki, A.Yunus xəstədir, onun ürəyində ciddi problemlər var: "Buna görə də Leyla Yunusun işgəncəyə məruz qaldığı haqda müdafiəçilərinə dediklərini Arif bəyə tam şəkildə çatdırmırıq. Çünki xəstəliyi ciddidir, belə xəbərlərə dərhal pis reaksiya verə bilər".

A.Yunus avqustun 5-də tutulub. Onun həyat yoldaşı, Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus da həbsdədir. Leyla Yunus iyulun 30-da həbs edilib. Onlar dövlətə xəyanətdə və maliyyə cinayətlərində ittiham olunurlar.

Leyla Yunus Bakı İstintaq Təcridxanasında saxlanılır. Son vaxtlar Leyla Yunus dəfələrlə müdafiəçilərinə bildirib ki, təcridxanada ona mənəvi-psixoloji və fiziki təzyiqlər edilir, ona işgəncə verilir. Ədliyyə Nazirliyinin Penitensiar Xidməti bu xəbərləri təkzib edib.

L.Yunusun vəkilləri isə onunla görüşə bilmədikləri və səhhətindən narahat olduqları üçün Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət ediblər. BQXK-nin Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova "Azadlıq" radiosuna deyib:

"Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycanda saxlanma yerlərinə baş çəkir. Amma hansı saxlanma yerlərinə baş çəkib, kimlərlə görüşüb bu barədə ictimaiyyətə məlumat vermir. Komitə görüş haqqında məlumatı həmin şəxsin yaxınları, ailə üzvləri ilə bölüşür. Komitənin iş prinsipi belədir".

Hüquq müdafiəçisi İntiqam Əliyev də saxlanma şəraitindən şikayət etmir. Bu haqda "Yeni Müsavat"a danışan oğlu Nəcmi Əliyev dedi ki, iki məhkəmə prosesi olub: "Apelyasiya Məhkəməsində ev dustaqlığı və götürülən sənədlərlə bağlı vəsatət qaldırıldı. Lakin heç biri təmin olunmadı. Bacım Nərmin sentyabrın 24-də Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə çağırılıb, atamın işi ilə bağlı dindirilib. Özü ilə görüşə bilməmişik. Amma elə bir şikayəti yoxdur".

❑ Emil SALAMOĞLU

# “Müsavatın yeni başqanı olaraq bəyan edirəm ki...”

## Arif Hacılı: “AXCP-dən olan tərəfdarlarımın və əleyhdarlarımın sayı barədə məlumata malik deyiləm”

### Müsavatın yeni başqanı ilk müsahibəsini “Yeni Müsavat”a verdi

**“Baxış bucağı”**

**Müsavat Partiyasının 8-ci qurultayında ən ciddi hadisə, sözsüz ki, partiyanın başında 22 ildir dayanan İsa Qəmbərin öz postundan getməsi və aparıcı müxalifət partiyasının başına yeni şəxsin gəlməsi oldu. Yeni başqan Arif Hacılı bu statusda ilk müsahibəsini “Yeni Müsavat”a verdi və seçkinin nəticələri, partiyanın qarşısında duran vəzifələrlə bağlı suallarımızı cavablandırdı.**

***- Arif bəy, Müsavat Partiyasının başqanı olaraq ötən 1 gün ərzindəki təəssüratlarınız, keçirdiyiniz hisslər və müşahidələriniz necədir?***

- Təbii ki, mən bunu özüm üçün siyasi uğur hesab edirəm. Ancaq bu seçkidə qələbə hər hansı möhtəşəm siyasi uğur kimi dəyərləndirilməməlidir. Çünki seçkilərdə opponentlərim də Müsavat Partiyasının kifayət qədər tanınmış üzvləri idi və düşünürəm ki, əgər qələbə çalmasaydım belə, bu, Müsavat Partiyası və Azərbaycan cəmiyyəti üçün böyük itki olmayacaqdı. Əsas keçirdiyim hiss məsuliyyət hissidir. Heç şübhəsiz ki, Müsavat Partiyasına görə, Azərbaycan demokratik düşərgəsinin bundan sonrakı fəaliyyətinə görə mənim üzərimə düşən məsuliyyət xeyli artdı.

***- Qələbə qazanmasaydınız, bunu özünüzçün necə, itki sayacaqdınız?***

- Təbii ki, istənilən siyasi prosesdə hər kəs qələbə çalmağı arzulayır. Ancaq seçkilərin nəticələri başqa cür olsaydı, bunu böyük siyasi uğursuzluq, faciə kimi qəbul etməzdim.

***- Əsas alternativiniz olan Qubad İbadoğlunun qurultay nümayəndələrinin az qala yarıbayarı səsini qazanması sizi narahat etdimi? Sizcə, bu, nəyin məntiqi nəticəsi idi, Arif Hacılının partiya daxilindəki nüfuzu, iş əmsalı ilə bağlıdır, yoxsa deyildiyi kimi, yeni sima görmək istəyənlərin sayının artması ilə əlaqədardır?***

- Bu, normal haldır. Ümumiyyətlə, əgər seçkilər tam demokratik keçirilirsə, əsas rəqiblərin tərəfdarlarının sayı təxminən bir-birilərinə yaxın olmalıdır. Məsələn, ABŞ-da keçirilən seçkilərdə adətən, belə nəticələr alınır. Yaxın dövrlərdə Ukraynada keçirilən seçkilərdə buna bənzər nəticə oldu. Əbülfəz Elçibəy demokratik seçkilərdə faiz etibarilə təxminən indi mənim topladığım səslər qədər səs toplamışdı. Adətən demokratik olmayan cəmiyyətlərdə, təşkilatlarda seçkilər keçirilərkən namizədlər arasında çox böyük bir fərq olur.

***- Nəticələr elan olunandan sonra İsa bəy sizi - iddialıları səhnəyə dəvət etdi və əl-ələ verdiniz, mehribanlıqla görüşüb-ayrıldınız. Bundan əlavə, keçmiş namizədlər arasında bizim müşahidə etmədiyimiz narazılıq, narahatlıq varmı?***

- Açığı, biz əvvəlcədən Qubad bəylə və Tural bəylə razılaşdırmışdıq ki, seçkilərin nəticələrinin nə cür olmasından asılı olmayaraq səhnəyə çıxacağıq və birlikdə olmağımız barədə həm Müsavat Partiyasının qurultay nümayəndələrinə, Müsavat Partiyasının bütün üzvlərinə və Azərbaycan cəmiyyətinə mesaj verəcəyik. Bu, çox uğurlu oldu. Bundan sonra da birgə fəaliyyət göstərmək imkanlarımız kifayət qədər yüksəkdir. Bu imkanlardan maksimum istifadə etməyə çalışacağıq.

***- Seçkiöncəsi görüşdə yeni başqanın komandasında digər iddialıların yer alması mövzusu da müzakirə edilmişdimi?***

- Bu kimi məsələləri müzakirə etməmişik. Amma mən bütün məsələləri müzakirə etməyə hazıram.

***- Siz özünüz necə, komandanızda digər iddialıların təmsilçiliyini istərdinizmi?***

- Bu, əsasən onların istəyindən asılı olacaq və bu məsələləri biz hamılıqla Müsavat Partiyasının rəhbərliyində İsa Qəmbərin də iştirakı ilə müzakirə etdikdən sonra qərar verəcəyik. Mən həmişə demişəm, bir daha təkrar edirəm ki, Müsavat Partiyasında kadr seçimində əsas üç kriteriya nəzərə alınacaq: 1. hər hansı vəzifəyə təyin olunan adamın bacarığı; 2. bu işi öz üzərinə götürməyə həvəsi; 3. həmin işi icra etməyə vaxtı olmalıdır. Bu kriteriyalara cavab verən Müsavat Partiyası üzvləri seçki kampaniyasında, digər məsələlərdə Müsavatın ayrı-ayrı liderlərinə qarşı münasibətdə hansı mövqeni tutmalarından asılı olmayaraq, Müsavat Partiyasında yüksək görəv daşıya biləcəklər.

***- Mərkəzi İcra Aparatının rəhbəri postunda kimi görürsünüz?***

- Müzakirələr gedir və nəticəsi mətbuata açıqlanacaq.

***- Müsavat başqanı olaraq hansı partiyalardan təbrik alıbsınız?***

- Məncə, bu suala cavab vermək hələ tezdir. Çünki gün yeni başlayıb və təbriklərlə bağlı suala yəqin ki, bir neçə gün ərzində cavab vermək daha düz olar.

***- Son aylara qədər Müsavatın yaxın müttəfiqi olan AXCP-dən sizin başqan olmağınızı istəyənlərin mövqelərini müşahidə etdik. Belə olan təqdirdə bu iki partiya arasında müttəfiqlik münasibətləri necə qurulacaq?***



**“Hakimiyyət müxalifətlə normal siyasi münasibətlərin qurulmasını istəsə, müxalifətə yönəlik siyasətini dəyişdirsə, müxalifət tərəfindən bu məsələdə hər hansı bir problem yaradılmayacaq”**

- Mən AXCP-dən olan tərəfdarlarımın və əleyhdarlarımın sayı barədə məlumata malik deyiləm. Dünən və bu gün AXCP-dən bir çox tanınmış adamlar bizi uğurlu qurultaya, keçirdiyimiz demokratik seçkilərə görə təbrik ediblər. Mən AXCP ilə müttəfiqlik münasibətlərinin tərəfdarıyam. Bu günə kimi bizim müttəfiqlik münasibətlərimizin olmamasının günahkarı Müsavat deyil. İndiki şəraitdə AXCP ilə müttəfiqlik münasibətlərinin qurulmasına bir daha cəhd etmək niyyətindəyəm.

***- Qubad İbadoğlunu müdafiə edən bəzi müsavatçıların seçkinin gedişatı ilə bağlı bəzi iradları, saxtakarlıqlarla bağlı sosial şəbəkələrdə fikirləri ilə rastlaşırıq...***

- Ola bilər ki, hansısa qüsurlar olub, amma mən ciddi iradlarla rastlaşmamışam...

***- Rəsul Quliyev Müsavat qurultayı və sizin başqan seçilməyiniza çox kəskin reaksiya verib, ittihamlar irəli sürüb. Bu barədə nə deyə bilərsiniz?***

- Rəsul Quliyevin açıqlaması ilə tanış deyiləm və bəlkə də uzun illərdir ki, onun açıqlamalarına reaksiya vermirəm. Odur ki, onun açıqlamalarına şərh vermək niyyətim yoxdur.

***- Bəs, YAP funksioneri Siyavuş Novruzovun reaksiyasını neca qarşıladınız? Müsavatı dərnək adlandırıb...***

- Müsavat ölkənin ən nüfuzlu partiyasıdır. Son proseslər bunu bir daha təsdiq etdi.

***- Qurultayda İsa Qəmbərin 2018-ci il prezident seçkilərində Müsavatın namizədi olaraq irəli sürülməsi fərqli reaksiyalar doğurub. Hesab olunur ki, prezident seçkilərinə uzun müddət qaldığı bir dönəmdə bu barədə qərar vermək tələskənlikdir. Siz bu qərarı necə əsaslandırırsınız?***

- Mən hələ qurultaydan əvvəlki müsahibələrimdə bu suala cavab vermişəm. Hesab edirəm ki, indiki siyasi şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyində keçiriləcək seçkilərdə Müsavat Partiyasının prezidentliyə namizədi İsa Qəmbər olmalıdır. Çünki İsa Qəmbər öz siyasi təcrübəsinə, seçicilərdən səs almaq imkanlarına, siyasi qüvvələrin daha geniş spektrini birləşdirmək imkanlarına görə digər siyasətçilərdən üstün vəziyyətdədir.

***- Bu günün əsas suallarından biri də odur ki, Müsavatın Arif Hacılı dönəmində əsas diqqət yetirəcəyi istiqamət nələr olacaq? Bu müddətdə yeni xətt, yeni baxışlar sisteminin bərqərar olması gözlənilənlərmi, yoxsa ənənəvi siyasi fəaliyyətə üstünlük veriləcək?***

- Müsavat Partiyası 103 il bundan əvvəl yaradılmış bir partiyadır. Müsavat Partiyasının konkret ideoloji-siyasi xətti var. Partiyanın hamımızın əməl etdiyimiz təməl prinsipləri var. Müsavat Partiyası məhz bu ideoloji-siyasi xətt əsasında fəaliyyət göstərəcək. Ancaq biz daim yeni siyasi texnologiyalar tətbiq etmişik, çox güclü seçki kampaniyaları, kütləvi aksiyalar keçirməyə nail olmuşuq. Partiya quruculuğu sahəsində bir sıra yeniliklər tətbiq etmişik. Yəqin ki, bundan sonra da yeni siyasi texnologiyaların tətbiq edilməsi ilə partiyanın resurslarının artırılmasına çalışacağıq.

***- Başqan olaraq, yəqin, sizin də fikriniz nəzərə alınacaq, eks-başqan İsa Qəmbərin hansı statusda fəaliyyət göstərməsini istərdiniz?***

- İsa bəy Müsavat Partiyasından 2018-ci ildə keçiriləcək prezident seçkilərinə namizəddir. Eyni zamanda Müsavat Partiyasının bəzi rəhbər şəxslərinin daxil olduğu Düşüncə Mərkəzinin sədridir. Hesab edirəm ki, İsa bəy öz şəxsi keyfiyyətləri vasitəsilə də həm Müsavat Partiyası daxilində, həm də bütövlükdə demokratik düşərgədə öz təsir imkanlarını saxlayacaq.

***- İsa Qəmbərin partiyada olduğu şəraitdə, obrazlı yanaşsaq, onun “kölgəsi”ndə qalmağınız sizi narahat etməyəcək ki?***

- Mən 25 ildir ki, İsa bəylə birlikdə fəaliyyət göstərirəm. Bu, mənə heç vaxt maneçilik yaratmayıb. Hesab edirəm ki, əksinə, İsa bəylə birlikdə olmağım mənim siyasi fəaliyyətimi daha da asanlaşdırılır.

***- İqtidarla münasibətləri necə qurmağı düşünürsünüz?***

- Biz Azərbaycanın ümummilli məsələlərində bütün qüvvələrlə əməkdaşlıq etməyə hazır olduğumuzu dəfələrlə bəyan etmişik, bu mövqeyimizdə hər hansı bir dəyişiklik baş verməyib.

***- Bu yaxınlarda YAP-dan bildirilmişdi ki, əgər yeni başqan dialoq istəyəcəksə, qarşı tərəfdən problem olmayacaq. Siz iqtidar-müxalifət münasibətlərindəki buzun əriməsi üçün nə təklif edirsiniz?***

- Təəssüf ki, Azərbaycan hakimiyyəti tərəfindən irəli sürülən dialoq təklifləri bir çox hallarda deklorativ xarakter daşıyır. Mən Müsavat Partiyasının yeni başqanı olaraq bəyan edirəm ki, Müsavat Azərbaycanın ümummilli məsələlərində Azərbaycanda fəaliyyət göstərən bütün siyasi qüvvələrlə əməkdaşlığa və bu məsələləri bütün siyasi qüvvələrlə müzakirə etməyə hazırdır.

***- Hakimiyyətdən gələn bir mövqe də müxalifətin iqtidarı legitim saymaması ilə bağlıdır. Hesab olunur ki, qarşılıqlı tanımaların olmamasının əsas səbəbi budur. Sizin dönəminizdə iqtidara baxışda dəyişiklik ola bilərmi ki, ənənəvi münasibətlər sistemindən kənara çıxılsın?***

- Ənənəvi münasibətlər sisteminin yaranmasında müxalifət günahkar deyil. Azərbaycanda fəaliyyət göstərən əsas aparıcı müxalifət partiyaları daim ölkə Konstitusiyası, qanunlarına, Siyasi partiyalar haqqında qanuna uyğun olaraq fəaliyyət göstərir. Bu baxımdan ölkədə radikal müxalifət yox, radikal hakimiyyət mövcuddur. Azərbaycan hakimiyyəti müxalifəti ölkənin ümumi siyasi sisteminin tərkibində görmək istəmir və bütövlükdə müxalifəti siyasi sistemdən sıxışdırıb çıxartmaq xətti götürüb. Odur ki, mən hesab edirəm ki, bu məsələdə seçim iqtidarın tərəfindədir. Hakimiyyət müxalifətlə normal siyasi münasibətlərin qurulmasını istəsə, müxalifətə yönəlik siyasətini dəyişdirsə, müxalifət tərəfindən bu məsələdə hər hansı bir problem yaradılmayacaq.

***- Yeni başqanın kabineti harda olacaq?***

- Bu, texniki məsələdir. Məncə, bu məsələ mətbuatda müzakirə olunmağa layiq deyil...

❑ **Elşad PAŞASOY**



# Qurultay təəssüratları...

**Samir SARI**

**Müsavatın qurultayı barədə xüsusi təəssüratlarımı ona görə fərqli səpkidə yazıram ki, bu hadisənin "siyasi arenada önəmli yenilik", "ibrətlik örnək", "parlaq nümunə" deyə öyənlər, eləcə də "Müsavat dağılır", "İsa Qəmbərin siyasi ömrünün sonu", "Daha bir müxalifət partiyası süqut edir" deyə arzularını dilə gətirənlər çox olacaq. Mən Müsavatın qurultayında başqa nüanslara diqqət etdim.**

**Tanıyanı tanımayanlar**

Qurultaya gələndə, yekə çıxmasın, şəxsimə yönəlik "ooo, bəy, xoş gördük" nidasıyla müşayiət olunan salamlaşmalar, görüşmələr, rəğbət nümayişləri məni yazar kimi şöhrətim, hörmətim barədə yüksək düşüncələrə vadar etməkdəykən əqidəli demokrat Hikmət Hacızadəylə rastlaşdıq. Salam-kalamdan dərhal sonra yanımızdakı dost zarafatla məni Hikmət bəyə təqdim etmək istədi. Böyük demokrat dedi, mən bu jurnalisti tanıyıram, "Azadlıq" radiosundan Xaləddin... Düzü, Hikmət bəyin məni "Azadlıq" qəzetindən Sucəddin hesab etməsinə də razıydım, amma "Azadlıq" radiosunda işləyən Xaləddini tanımadığım üçün özümü təqdim etdim, iş yerimi dedim və bəy iki saatdan sonra edəcəyi çıxışının mətnini mənə hədiyyə etdi.

Ondan aralanandan bir neçə saniyə sonra daha bir "ooo, bəy, xoş gördük" ehtiramı ilə rastlaşdım. İndi də bu şəxs mənə çox tanış gəlirdi, hiss edirdim ki, əvvəllər görüşüb, danışmışıq, di gəl, adı yadıma düşmürdü. Məcbur olub o özünü təqdim etdi, məlum oldu ki, eloğluyuq, üstəlik, bibimoğlunun yaxın dostudur və biz əvvəllər bir neçə dəfə söhbət etmişik. Daha sonra məlum oldu ki, bir-birini 20 ildən bəri üzdən tanıyan adamlar birinin adını xatırlamaqda çətinlik çəkirlər.

Bax, belə bir əhvalat. Səni tanımayanı tanıyırsan, tanıyanı isə tanımırsan. Sevməyəni sevirsən, sevdiyin də səni sevmir məsələsində olduğu kimi... Amma bu məsələnin romantika ilə ilgisi yoxdur, müxalifətdə, mitinqlərdə, aclıq aksiyalarında qocalıb getmişik, huş-baş qalmayıb.

**Müdhiş "saxtakarlıqlar", "pozuntular"**

Səsvermənin gedişində yandan eşitdim ki, jurnalistlər oturan sektorda "dəhşətli saxtakarlıqlar, pozuntular" barədə pıçıldaşma gedir. Maraqlandım. Soruşdum. Dedilər, ta bunların iqtidardan fərqi nə oldu, seçkinin saxtalaşdırırlar. Dedim, nə olub axı, "karusel" əməliyyatı həyata keçirilir, yoxsa müəllimələr seçki qutusuna topa-topa bülleten atırlar, bəlkə seçki komissiyasının üzvü barədə protokol tərtib edib, özünü də zorla maşına basıb bölməyə aparıblar, nə baş verib. Aydın oldu ki, bunların heç biri deyil, daha müdhiş pozuntudur. Bəs səsvermənin gizliliyi pozulub, nümayəndələr səsvermə kabinəsində yox, salonda, dəhlizdə dizlərinin üstündə seçim edirlər. Pah!!! Belə şey olarmı? Müsavata yaraşarmı? Hətta sabiq deputat İltizam Əkbərli-ni, türkün sözü, suçüstü yaxalamışdılar. O da bu ölkənin ən abırlı 10 adamından biri olduğu üçün qalmışdı belə.

Baxırsan ki, gəncdirlər, hələ bilmirlər ki, gizli səs verməK insanların vəzifəsi deyil, hüququdur, kim necə istəyər, elə də edə bilər. Üstəlik, 450 iştirakçının 5-6 kabinədə növbəylə səsverməsi üçün düz diricə bir sutka vaxt lazımdır. Çünki bülletenlərdə 150-dən çox seçilməK istəyənin adı var. Onların arasında seçim etmək üçün ən azı siyahını aşağı-yuxarı üç dəfə oxumaq, sonra bircə-bircə işarələmək lazımdır, bu da ən azı yarım saat vaxt aparır. 21 il müxalifətdə hövsələ ilə durduqlarına baxmayın, bizim camaat 15-20 saat növbə gözləyə bilməz. O üzdən bülletenlərini dizlərinin üstünə alan, hətta divara söykəyənlər vardı. Əlbəttə, bu, müxalifətçi komissiya üzvlərinin seçki günü həbs edilib bölmədə sırayla divara söykədilməsi ilə müqayisədə... (cümlənin ardını zövqə görə tamamlayın: "boş şeydir", "daha ağır pozuntudru").

**İşgəncə faktları**

Bu cür irreal pozuntulardansa, real işgəncə faktlarından danışmaq olar. Bəzi çıxışçılar Müsavatın keçmiş başqanı İsa Qəmbərə işgəncə verirdilər - onu təkrar-təkrar tərifləyirdilər. Düzdür, tərifdən hamının xoşu gəlir. Amma tərif yerində olanda və əndazəsini aşmayanda. İsa Qəmbərin isə təkrarlanan təriflərə reaksiyası psixoloji işgəncəyə artıq tablaşa bilmədiyini göstərirdi.

Arada baş redaktorumuz Rauf Arifoğlu da işgəncəyə məruz qaldı. Bir də gördüm, deyir: "Yaşar, qardaş, bayaqdan yeddi dəfə yaxınlaşmısan ki, bəy, sənə sözüm var, di de görək, nə deyirsən".

Yaşar da nəsə dedi, amma fikrini tamamlamadı, sonra, səkkizinci dəfə yaxınlaşmaq üçün aralanıb getdi...

---

**Sentyabrın 27-də keçirilən Müsavat Partiyasının qurultayında 447 nəfərdən 228-nin səslərini qazanan Arif Hacılı yeni başqan oldu. Digər namizədlərdən Qubad İbadoğlu 200, Tural Abbaslı isə 19 səs topladı.**

# Başqanlığa namizəd olanlar Arif Hacılının qələbəsini tanıdılar

Müsavat Partiyası başqanı ola bilməyən namizədlər seçki təəssüratlarını "Yeni Müsavat"la bölüşdü, bundan sonra atacaqları addımlar barədə məlumat verdilər.



**Qubad İbadoğlu:** "Seçkilər azad keçirildi"



**Tural Abbaslı:** "Normal və ədalətli seçki təmin olundu"

Seçkilərdə yeni başqan Arif Hacılının ən güclü rəqibi olan Qubad İbadoğlu bildirdi ki, seçkilərin nəticələrini qəbul etsə də, bundan sonra Müsavat Partiyasında heç bir vəzifədə və ya seçkili orqanda təmsil olunmayacaq: "Seçkilər azad keçirildi. Ancaq həm seçkiqabağı dövrdə, seçkiyə hazırlıq prosesində bəzi qərəzliklər oldu. Amma hər halda bu bir seçimdir və mən bunu qəbul edirəm. Hesab edirəm ki, bu, Müsavatın seçimi idi, sadəcə olaraq, seçimlərdə İsa bəyin də əhəmiyyətli rolu olub. Burada Müsavatın status-kvosunun saxlanılması ilə Müsavatın dəyişməsi arasında mübarizə gedirdi. Biz öz platformamızı təqdim etmişdik, bu platforma qurultay nümayəndələrinə bəlli idi. Görünür, Müsavatın belə qalması və bu şəkildə davam etməsini istəyənlər daha çox oldu və bu baxımdan da seçkinin nəticələri bu cür oldu. Bu seçkinin nəticəsi göstərdi ki, Müsavatda bundan sonra hər hansı ciddi dəyişiklikdən söhbət getməyəcək".

Müsavatın yeni başqanının komandasında təmsil olunmağa gəlincə, Qubad İbadoğlu bildirdi ki, o heç bir təklifi qəbul etməyəcək: "Bu, bizim ortaq qərarımızdır, mən Müsavat Partiyasında seçkili orqanlarda təmsil olunmaq və təyinatlı vəzifələrə qəbul edilmək niyyətində deyiləm. Mənim Müsavat Partiyasında yetərincə tərəfdarlarım var. Bu bizim ümumi qərarımız olacaq. Biz bu partiyaya məfkurə uğrunda mübarizə üçün gəlmişik, mənafe uğrunda mübarizə üçün gəlməmişik. Mən müsavatçılıq məfkurəsi ilə öz mübarizəmi davam etdirmək niyyətindəyəm".

Seçkidə ən az səs toplayan namizəd Tural Abbaslı seçkilərin nəticələrini qəbul etdiyini və bundan sonra onun təklif olunan istənilən vəzifədə fəaliyyətini davam etdirəcəyini bildirdi: "Müsavat Partiyasında seçki keçirildi və seçki komissiyasında bizim də müşahidəçilərimiz var idi. Normal, ədalətli seçki təmin olundu. Həmin şəraitdə nə qədər mümkün idisə, o qədər mükəmməl bir seçki oldu. Nəticələr də elan olundu və mən əvvəlcədən də qeyd eləmişdim ki, Müsavat Partiyası qurultayının iradəsi nə olacaqsa, bizim üçün qəbuldur. Seçilən şəxsin kimliyi yox, Müsavat Partiyası qurultayının iradəsi bizim üçün vacib idi. O iradə də özünü göstərdi və biz də bunu qəbul edirik. Bundan sonra önümüzə baxacağıq. Hər birimiz müsavatçıyıq və bundan sonra da hakimiyyətə qarşı mübarizəmizi davam etdirəcəyik".

Müsavat Partiyasının rəhbərliyinə gəlmiş yeni komandada təmsil olunmasına gəlincə, Tural Abbaslı dedi ki, ona təklif olunan istənilən vəzifəni qəbul etməyə hazırdır: "Mən əvvəldən də demişəm ki, Müsavat Partiyasının sıravi üzvlüyündən tutmuş harada faydalı olacağımız düşünülsə və bizə təklif olunsa, təmsil olunmağa hazırıq. Bu mübarizə şəxslər arasında deyil, ümumi mübarizədir".

Seçkilərdən sonra Müsavat Partiyasında parçalanmaların olacağı iddialarına gəlincə, Tural Abbaslı bunun baş vermə ehtimalının çox az olacağını bildirdi: "Düşünmürəm ki, partiyadan ayrılanlar çox olacaq. Düzdür, səslər təxminən demək olar ki, hər iki tərəfdə eyni idi. Bu da Müsavat Partiyasının demokratikliyini göstərir. Mən düşünmürəm ki, parçalanma olacaq. Çünki səs verənlərin hamısı müsavatçıdır. Müsavatçılar ideologiyaya görə partiyaya gəlirlər, mübarizəyə görə gəlirlər, şəxslərə görə gəlmirlər ki, birinin qalibiyyətindən sonra digərinin tərəfdarları partiyanı tərk eləsin".

❑ **Nərgiz LİFTİYEVA**

---



# Qubad İbadoğlu tərəfdarlarına səsləndi

## "Ruhdan düşməyin, məğlub deyilik..."

**Müsavat Partiyasının başqanlığına iddiaçılardan biri Qubad İbadoğlu son qurultaydan sonra açıqlama ilə çıxış edib. Musavat.com xəbər verir ki, cənab İbadoğlu bu açıqlamanı özünün facebook sosial şəbəkəsindəki səhifəsində yayıb. Həmin sənədi təqdim edirik:**

"Müsavat Partiyası başqanlığı yarışında mənə dəstək verən bütün partiyalı və partiyasız dostlarıma təşəkkür edir, onların dəstəyini Azərbaycan cəmiyyətinin 10 illərdir təşnə olduğu demokratiyaya, azadfikirliliyə, islahatlara və müsbət dəyişikliklərə verilən dəstək kimi dəyərləndirirəm. Seçki kampaniyasında fəallıq nümayiş etdirən, səsini məndən əsirgəməyən fədakar müsavatçı qardaş və bacılarım! Ruhdan düşməyin və qətiyyən mübarizədən məğlub çıxdığımızı düşünməyin! Məqsədimiz Müsavatı bu mübarizədən qalib çıxarmaq idi. Bizim mübarizəmiz mənafe yox, məfkurə mübarizəsidir!

Mücadiləmiz davam edir! Sevgimiz vətən sevgisidir!"

---

# "AST Telman"dan İlham Mirzəyevə zərbə...

## Məşhur iş adamı hətta adının onunla bir yerdə hallanmasını belə istəmir...

**"AST" şirkətlər qrupunun prezidenti, yəhudi əsilli azərbaycanlı iş adamı Telman İsmayılov həbsdə olan tanınmış teleaparıcı-falçıya qahmar çıxmayıb (axar.az).**



Məlumatlı mənbənin sözlərinə görə, o, dələduzluq ittihamı ilə həbs edilən "Space" telekanalının aparıcısı, psixoloq-falçı İlham Mirzəyevin müdafiəsinin qurulmasında iştirak etməyib. Teleaparıcının arxasından çəkilən iş adamı hətta adının onunla bir yerdə hallanmasını belə istəmir.

İlham Mirzəyev "AST Telman"ın Türkiyədəki məşhur "Mardan Palace" otelində dincəlib, iş adamından hədiyyələr alıb. Psixoloq həbs edildikdən sonra ümid edib ki, "AST Telman" ona sahib çıxacaq, ona həm hüquqi, həm də mənəvi baxımdan dəstək verəcək.

Amma İlham Mirzəyevin həbsinin ertəsi günü rəsmi dövlət nəşri olan "Xalq qəzeti"ndə onun "AST Telman" və Azərbaycanın baş nazirinin sabiq I müavini Abbas Abbasovla əlaqələri barəsində dərc edilən məqalə hər şeyə son qoyub. Rusiyada yaşayan hər iki şəxs onlar üçün sıradan bir dələduzluq hadisəsinə görə tutulan adamın işində adlarının çəkilməsinə görə narahat olublar. Xüsusilə də "AST Telman" Mirzəyevdən yaxasını kənara çəkib.

Xatırladaq ki, sentyabrın 30-da, saat 11:00-da Nərimanov Rayon Məhkəməsində İlham Mirzəyevin işi üzrə məhkəmə davam etdiriləcək. Onun hüquqlarını vəkillər Xanlar Bayramzadə və İkram Abdullayev müdafiə edir.

YENİ MÜSAVAT
N 242 (5951) 29 sentyabr 2014



# BMT divarları arasında kritik Qarabağ müzakirələri

## Düşmən ölkə başçısının dünya birliyini aldatmaq cəhdləri fiasko oldu; Sərkisyanın Ərdoğandan almalı olduğu cavab Məmmədyarovdan gəldi, prezidentlərin növbəti görüşü sual altında...

**Gözlənildiyi kimi, Dağlıq Qarabağ mövzusu BMT Baş Məclisinin 69-cu sessiyasının gündəliyindən da yan ötmədi. Öncə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan ikilikdə, ardınca isə ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə bir araya gəldilər.**

Məlumatlara görə, bu təmaslarda diqqət mərkəzində olan mühüm məsələlərdən biri Azərbaycan və Ermənistan prezidentlərinin növbəti təkbətək görüşünü təşkil eləmək olub. Erməni qaynaqlarının iddiasına görə, görüş oktyabrın 27-də Parisdə reallaşacaq. Lakin hələlik Bakıdan görüşə rəsmən razılıq verildiyi haqda qəti mövqe gəlməyib.

Prezident Administrasiyasının rəsmisi Novruz Məmmədov isə, bəlli olduğu kimi, bir qədər əvvəl ölkə rəhbərliyi adından bəyan edib ki, Azərbaycan tərəfi görüş xətrinə görüşlərə qatılmayacaq. İstisna deyil ki, Bakı analoji mövqeyini bir daha ortaya qoysun və praktikaya yönəltsin. Məsələ ondadır ki, işğalçı Ermənistanın prezidenti Serj Sərkisyan BMT tribunasından prezidentlər formatında görüş atmosferi üçün tamamən qəbuledilməz olan bir çıxış yapıb, növbəti dəfə Azərbaycanın və Türkiyənin ünvanına böhtan və iftiralar, hətta təhqir yağdırıb.



Onun söylədiklərindən belə təəssürat yaranır ki, artıq separatçı Dağlıq Qarabağın əhalisi öz müqəddəratını təyin edib qurtarıb, məsələ bitib və indi sadəcə, bu faktı fiksə eləmək, rəsmiləşdirmək lazımdır, sülh danışıqları da bu yöndə getməlidir. Sərkisyan öz çıxışından o dərəcədə təsirlənib və siyasi ekstaza girib ki, üstəlik, utanıb-qızarmadan BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 qətnaməsini məhz Azərbaycanın yerinə yetirmədiyini söyləyib. Hərgah, hamıya bəllidir ki, həmin qətnamələr işğalçı hərbi birləşmələrin Azərbaycan ərazilərindən çıxarılmasını vacib şərt kimi qoyur.

Yəni təcavüzkar ölkə rəhbəri dünya ictimaiyyətinin gözünün içinə baxa-baxa erməniliyə xas tərzdə belə bir ağ yalan danışıb, onu aldatmağa cəhd edib. BMT üzvlərinə növbəti dəfə öz müqəddəratını təyinetmə nağılları danışan düşmən dövlətin başçısının bu cür maksimalist, radikal mövqeyi bir daha nümayiş etdirib ki, işğalçı ölkəyə Rusiya kimi beynəlxalq təzyiqlər olmasa, onu ədalətli sülhə vadar eləmək mümkünsüz olacaq. Bu təzyiqlərsiz prezidentlər səviyyəsində görüşlərin də anlamı qalmır. Yeri gəlmişkən, yüksək səviyyədə növbəti görüş ehtimalının bəri başdan azaldığını da söyləmək olar.

Bunlar öz yerində. Əfsus ki, müəyyən fasilədən sonra, Sərkisyanın ardınca söz alan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan onun cavabını layiqincə vermədi, yalnız ümumi sözlərlə kifayətləndi və ən çox İŞİD mövzusuna qapanıb qaldı. Amma Ərdoğanın Azərbaycana bir vəfa borcu var idi. Çünki bu ilin aprelində Azərbaycan prezidenti İlham Əliyev Avropa Birliyinin Praqada keçirilən "Şərq tərəfdaşlığı" sammitində, Türkiyə rəhbərinin qatılmadığı tədbirdə Sərkisyanın qardaş ölkə haqda sərsəmləmələrinə tutarlı cavab vermişdi. Eyni qarşılıqlı jesti, malesef, Ərdoğandan görmədik.

Yaxşı ki, cavab heç olmasa xarici işlər naziri Elmar Məmmədyarovdan gəldi. Nazirin çıxışında Sərkisyanın bütüm "arqumentləri" darmadağın edildi, yalanı üzə çıxarıldı. Bundan əlavə, Ermənistan prezidentinin çıxışı ilə bağlı Azərbaycanın BMT-dəki nümayəndəliyi də sessiya iştirakçıları arasında xüsusi sənəd yayaraq erməni tərəfin işğalçılıq siyasətinin mahiyyətini bir daha faş elədi.

***

BMT-dəki kritik Qarabağ müzakirələri növbəti dəfə bir gerçəyi daşlaşdırmış oldu. Bu da ondan ibarətdir ki, ipə-sapa yatmayan rəsmi İrəvan münaqişə zonasında status-kvonun dəyişməsində maraqlı deyil, yaxud da problemin həllinə yalnız separatçı qurumun tanınması kontekstində baxır; Minsk Qrupu çərçivəsində iki və çoxtərəfli görüşlərə prezidentlər səviyyəsində görüşər isə ondan ötrü sadəcə baş qatmaq, vaxt uzatmaq, şirma rolundadır.

BMT-dəki sessiya eyni zamanda, Minsk Qrupunun əsas vasitəçi qurum olaraq tam yararsızlığını çılpaqlığı ilə, yenidən ortaya qoymuş odlu, Türkiyənin də aktiv qatılacağı təzə və daha işlək, dinc nizamlama formatı axtarışının zəruriliyini gündəmə gətirdi.

❑ **Siyasət şöbəsi**

# Putindən sensasion yasaq - sosial şəbəkələr bağlanır

## İnternetlə bağlı qəbul edilən yeni qanun ölkə əhalisini şoka salıb...

**Rusiyada qəbul edilən yeni internet qanununa əsasən, sosial şəbəkələr "qara siyahı"ya salına bilər. anspress-in məlumatına görə, qanun ən çox istifadə edilən sosial şəbəkələrə zərbə vura bilər. Belə ki, yeni sənəd ölkəyə senzuranın gətiriləcəyini göstərir.**

Yüksək vəzifəli nümayəndələrdən biri bu qanunla facebook və twitter sosial şəbəkə saytlarının, eləcə də gmail e-poçt xidməti servisinin bağlana biləcəyini açıqlayıb.

Rusiya Federasiyası prezidenti Vladimr Putin təsdiqlədiyi yeni qanun çərçivəsində hər üç şirkətə yanvar ayınadək ölkənin rabitə və informasiya texnologiyalarının izlənməsi qurumuna müraciət etmələri üçün vaxt verib.

Rusiyanın "İzvestiya" qəzetinə müsahibəsində məsələ ilə bağlı açıqlama verən "Roskomnadzor"un sədr müavini Maksim Ksenov internet yasaqlarını belə dəyərləndirib: "twitter, facebook və gmail qərar verməlidir. Hökumət onları ölkədən çıxarmaq istəyir və imzalanmış qanunu həyata keçirmək fikrindədir".

gmail və twitter hələlik məsələ ilə bağlı açıqlama vermək istəməyib, facebook isə ümumiyyətlə bu yöndə olan sorğuları cavablandırmayıb.



# Hökümsüz ölümlər...



Hüseynbala SƏLİMOV

**Yaşa dolduqca dünya daha təəccübləndirmir. Çox az adam qalır ki, axıra qədər uşaq marağını saxlayır. Böyük əksəriyyət üçün, yaşlılar üçün kəşflər və tapıntılar dövrü arxada qalır. Yaşlı insanlar dünyaya bir az kinayə ilə, tənə ilə və bir az da tənbəl-tənbəl baxırlar...**

Ona görə də dünyanın təzadaları, tapmacaları mənim üçün artıq əvvəlki duzunu itirib. Adama elə gəlir ki, mən bu dünyada hər şeyi eşitməyə hazıram və düşünürsən ki, nə baş versə, hətta birdən qiyamət qopsa belə daha mən təəccüblənmərəm...

Ona görə də deyiləndə ki, ölüm hökmünə 21-ci əsrdə yer olmamalıdır, mən bunu da əsnəyə-əsnəyə dinləyirəm. Ona görə yox ki, mən bu fikrin əleyhinəyəm. Yox, ölüm hökmü olmasaydı Sokrat ölməzdi, Nəsiminin dərisi soyulmazdı, Babək edam olunmazdı. Ölüm hökmü olmasaydı insanlar İsa peygəmbəri çarmıxa çəkmək kimi biabırçı əmələ imza atmazdılar...

Amma mən başqa şeyi də bilrəm. Bu dünyada həm də hökümsüz ölümlər var. Özü də hökümsüz ölümlərin sayı qat-qat çoxdur. Bəli, bu dünyada siyasətçilərin törətdikləri müharibələr var. Bu müharibələrdə minlərlə insan elə-belə, hökümsüz- filansız ölür. Ona görə də həm də 21-ci əsrdə müharibəlrər yer olmamalıdır deyin. Deyə bilirsinizmi? Mən bunu siyasətçilərə deyirəm, onlardan soruşuram. Ona görə ki, əslində hər şeyə bu adamlar cavabdeh olmalıdırlar, çünki öldürən də, ölümə göndərən də onlardır...

Bunu apolitika kimi qəbul etməyin. Mən heç vaxt apolitik adam olmamışam. Düşünmüşəm ki, siyasətçilərə ehtiyac olmasaydı bəşəriyyət onlarsız keçinə və bir cəmiyyət, toplum olaraq yaşaya bilərdi. Amma insanlar arasında fərq hiss olunan zamandan başlayaraq hakimiyyət və siyasət meydana çıxıb. Mən buna "sürü" sindromu deyirəm- sürü başçısız keçinə bilmir...

Bütün canlı aləm belə durumdadır. Amma digər canlılar insandan fərqli olaraq daha xoşbəxtdirlər, çünki var oluşun, yaşamın qaydaları haqqında onlarda sual yaranmır. Uzağı başçı rolu üstündə onlar arasında qovğa olur...

O yalnız insandır ki, daim qaydaları dəyişdirmək, onları təkmilləşdirmək haqqında düşünür. Buna görə də ölüb-öldürür...

Öldürmək də cürbəcür olur. Biri var səni fiziki mənada öldürürlər. Bu, bəlkə də ən yaxşı perspektivdir. Amma ölüm də var ki, hər gün gəlir, qayıdır...

Bu yaxınlarda bir türk serialına baxırdım. Orada bir nəfərin ölüm tarixini "hər gün" yazmışdılar.

Bunları pessimizm kimi qəbul etməyin. Düzdür, tutqun payız havası məndə həmişə kədərli ovqat yaradır. Amma bu, ötəri haldır. Kədər də əzəli və situativ olur. Biri var fəslin, havanın gətirdiyi müvəqqəti kədər, bir də var dünyanın yaranışından və məzmunundan irəli gələn əbədi kədər...

Bəli, nə qədər kədərli olsa da, insanlar başqa cür yaşaya bilmədilər. Qədim yəhudilər Allaha "Sən bizə peyğəmbər göndərirsən, amma biz padşah istəyirik, bizə padşah göndər" dedilər. Allah da onları eşitdi. O gündən Allaha şərik çıxan, öldürən və bagışlayan insanlar peyda oldu...

O gündən insanlar bir tərəfdən beləlri olmadan keçinə bilmir, o biri tərəfdən də onların əlindən dad edir, onlara qarşı üsyan edir və bir hökmdarı başqası ilə əvəz edirlər...

Beləcə, bəşəriyyətin həyatı karusel kimi davam edir. Bu karuseldən ən azı yaxın min il üçün çıxış yolu görünmür.... Ona görə ki, hələ insan Allaha "Bizə hökmdar lazım deyil!" -deyə bilmir.

"Ölüm haqdır!", "Ölüm Allahın əlindədir!" deyiblər. Elə bu səbəbdən adamın ağlına belə fikir gəlir ki, öldürmək missiyasını insanın əlindən almaq lazımdır.

Amma insan bunu tam mənada bacaracaqmı? Güman etmirik...

Dünya hələ ki, ölüb-öldürmək üzərində bərqərar olub. Bu mənada dünya bir o qədər də dəyişməyib. Milyon il bundan əvvəl insan bir parça ət, sümük üstündə öldürürdüsə, indi torpaq üstündə, neft üstündə, qaz üstündə öldürür və bu baxımdan bir daha deyirik ki, insan çox az dəyişib.

Ona görə də hələ uzun müddət məhkəmələr ölüm hökmü çıxarmasa da insanlar, bəli, səalhiyyətli insanlar digərlərini hökümsüz öldürəcək - müharibə edəcək, torpaq tutacaq. Milyon illərdir ki, insan bapbalaca Yer kürəsini bölüb qurtara bilmir...

Belə getsə, hələ uzun müddət bilməyəcək də... Bəlkə də ona görə ki, Yer yumrudur. Hansı səmtə üz tutursan, yenə də qayıdıb əvvəlki yerə gəlirsən və bu, ən azı Marsa uçaşa qədər davam edəcək... Onda bəlkə də kosmik koloniyalar yaranacaq və insan bir daha Yerə dönməyəcək...

YENİ MÜSAVAT
N 242 (5951) 29 sentyabr 2014



# ATƏT üçün Balıq Hafiz

Zamin HACI
zaminhaci@mail.ru

**Tarixi ənənələrə hörmət baxımından müstəqil respublikamızda hər şey SSRİ tarixinə uyğun gedir. Axı YAP Kommunist Partiyasının balaca balasıdır, onun içindən çıxıbdır.**

Məsələn, bolşeviklər hakimiyyətə gələndən yalnız 15-20 il sonra ziyalılara, yazıçı və şairlərə, ümumi ifadə eləsək, sənətkarlara diqqət yetirməyə başladılar. 1934-cü ildə Azərbaycan Yazıçılar Birliyi quruldu, bundan 3 il sonra yazıçıları dənləməyə başladılar. Nəyə görə bu dövri ardıcıllığa ehtiyac var idi? Çünki hakimiyyəti tutmuş "fəhlə-kəndlilərin, matrosların" (ona görə dırnaq arasında yazıram ki, bolşeviklərin çoxu əslində normal fəhlə-kəndli deyildilər, daha çox orta sinifin avara tör-töküntüləri idi) bir müddət fiziki aclığı dəf etməyə başı qarışmışdı. Özlərini bir az tutandan sonra anladılar ki, indi ziyalı adlanan sinifi yemək lazımdır. Maraqlıdır, o zaman faşistlər də sovetlər kimi eyni addımı atdılar, kitabları yandırdılar, sənəti düşmən elan etdilər.

"37-ci il" repressiyasını hökumət həyata keçirsə də bunun texniki baxımdan bir növ alt infrastrukturuna, cəmiyyətdə dayaqlarına ehtiyac var idi. Sadə dillə desək, şairi tutmaq üçün onun üzünə duran şair düzəldilməli idi.

Bax, son dövrlər mən yapistlərimizin bu yöndə məqsədyönlü fəaliyyətini izləyirəm. Tamamilə eyni mexanizm qurulur. Artıq AYB üzvləri arasında bir neçə gənc MTN agenti böyük əzmlə şeir, hekayə, dramaturgiya qayırırlar. Bunlar 2017-ci ildə (simvolik olaraq əsl yazıçı repressiyasını həmin ildə başlamaq mümkündür) iclaslara başlayıb, misal üçün, Azad Yazarlar Ocağının üzvü olan şair və yazıçılara imperialist xarici dairələrin nökərləri adıyla güllələnmə tələb edə bilərlər.

Doğrusu, prosesləri izlədikcə cəsur çekistlərimizin fantaziyasına heyran qalırsan, fikirləşirsən axı bu qədər əziyyəti niyə çəkirlər, bəziləri ayda bir şeir-meir kitabı qayırır. Məsələn, mən indi burda sizə onlardan biri, gənc şair-slavyanoloq-jurnalist-boksyor-hüquqşünas-pravozaşitnik-paravozsürən-eksperimentçi-ekskrementçi-deputat köməkçisinin "Gördüyüm qadın" trilogiyasına daxil olan "Öpdüyüm qadın" epopeyasından "Uçduğum qadın" şeirlər kitabına daxil edilən "Satdığım qadın" poetik nümunəsindən bir parçanı təqdim edirəm:

"Axı sən məni niyə sevmirsən
Mən isə səni sevirəm
Ayaqlarından öpürəm
Çünki başqasını sevə bilmirəm
Səni gördüyüm gündən ancaq səni düşünürəm
Yalnız səni sevirəm
Ancaq sən məni sevmirsən
Lakin mən həmişə səni sevəcəyəm".

Sitatın sonu. Bəlkə əziz oxucular elə bilər məzələnirəm, ancaq bu adamın çoxlu belə əsərləri kitab halında çıxıb, internetdə də 8 dildə saytını qayırıblar.

Bax, əziz çekistlər, bu cür gücənməyə nə ehtiyac var? Adamlara pislik eləməyin başqa üsulları qalmayıbmı? O məşhur anekdotda deyilən kimi, yoxsa KGB-də artıq patron da qalmayıbdır? Niyə bu yazıqlara şeir yazdırırsınız?

Bayaq görkəmli şairimizin vəzifələrini saydım, orda hüquq müdafiəçisi işi xüsusilə maraqlıdır. Demək, bu adamı sağa-sola işlədəndən sonra görüblər ayrı kadr yoxdur, atıblar indi də QHT sahəsinə. Bir gülməli saytını da düzəldiblər, 3 dildə. Ən maraqlısı odur ki, qonqo-QHT-nin içinə çoxlu "demokratiya, insan hüquqları" sözləri salıblar, guya bununla adam ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu kimi bir şey olur. ATƏT-i havadan yazmıram, yapistlərin bu karikatur təşkilatının emblemi... ATƏT-in embleminə oxşadılıb! Bir növ, bu gənc də ATƏT-in Balıq Hafizi, Müasir Müsavat-ı kimi bir şeydir. Gülürsünüz? Gülməyin. MTN-in cəmi 4 aya qurduğu bu təşkilat indi Avropadan bizə insan haqları dərsi keçir, yapistlərin xoşu gəlməyən adamları "erməni" elan edir. Onun saytına girəndə hətta Naxçıvanda döyülən jurnalistin üzü qanlı... 5 fotosu adama baxır! Təsəvvür edirsinizmi? Müxalifət qəzeti, müxalif təşkilat döyülənin uzağı bir-iki şəklini səhifədə saxlayır, bu isə albom düzəldib. Mesaj verirlər ki, sizi nəinki döyərik, hətta döyülmüş şəklinizdən də özümüz üçün istifadə edərik.



# 6-cı başqanın 228 səsi - Arif Hacılı Müsavata necə rəhbər oldu...

## Müsavat Partiyası VIII qurultayını keçirdi; İsa Qəmbər: "Yüz ildir ki, xalqımız bu yolu gedir"...






**Sentyabrın 27-də Müsavat Partiyası VIII Qurultayını keçirib. Əmircan qəsəbəsindəki Səttar Bəhlulzadə adına mədəniyyət evində keçirilən qurultayın əsas özəlliyi partiyanın başqanlığı postu uğrunda ciddi mübarizənin getməsi olub. Belə ki, Müsavat nizamnaməyə uyğun olaraq başqan seçkisi keçirib və partiyasının yeni rəhbəri seçilib. Başqan dörd namizəd arasından seçilib və bir çoxlarının gözlədiyi kimi, məsələ ikinci tura qalmayıb. Başqan postu uğrunda isə dörd namizəd - Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy mübarizə aparıblar.**

Qurultayda 587 qurultay nümayəndəsindən 450-dən çoxu iştirak edib. Tədbiri Müsavat başqanı İsa Qəmbər açıq elan edib. Tədbir Azərbaycanın Dövlət Himninin səslənməsi ilə başlayıb. Daha sonra Müsavat Partiyasının himni səsləndirilib. Həmçinin, İ.Qəmbər toplantı iştirakçılarını torpaq və haqq yolunda şəhid olanların xatirəsinə sayğı duruşuna dəvət edib və onların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra tədbiri idarə etmək üçün iki həmsədr və bir fəxri sədr seçilib. İ.Qəmbər və Divan üzvü Almaz Əliqızı həmsədr, Azərbaycan Kültür Dərnəyinin rəhbəri Cəmil Ünal fəxri sədr seçilib. Həmçinin redaksiya heyəti, say komissiyası, təşkilat komitəsi seçilib. Daha sonra qurultayın gündəliyi elan və təsdiq edilib. Gündəlikdə duran əsas məsələlər Mərkəzi Təftiş Komissiyasının hesabatı və təşkilati məsələlər olub.

Başqan bildirib ki, məkanla bağlı problemi nəzərə alaraq qurultaya digər siyasi partiyalardan qonaq dəvət etməyiblər. O, həmçinin qeyd edib ki, qurultayla bağlı bir çox təbriklər var, xüsusən Türkiyədən çoxsaylı təbriklər göndərilib. Onun sözlərinə görə, hazırda həbsdə olan siyasi məhbuslar, həbsdəki Müsavat funksionerləri, NİDA-çı dostlar da qurultaya təbriklərini göndəriblər. Eyni zamanda, həbsdəki dindar kəsimin təmsilçiləri, jurnalistlər və vətəndaş cəmiyyəti təmsilçiləri də təbrik göndərənlər sırasındadır.

### İsa Qəmbər: "Bu tarixi hadisə xeyli uzandı"

Daha sonra Müsavat başqanı İsa Qəmbər geniş çıxış edib. O, ilk olaraq qurultay iştirakçılarını bu önəmli gün münasibətilə təbrik edib. "Bu tarixi hadisə xeyli uzandı. Xeyli müqavimətlə qarşılaşdıq. Uzun bir zaman keçdi bizim yeddinci qurultayımızdan. Və biz partiyamızın səkkizinci qurultayını Azərbaycanın imkanlarına yaraşan, Müsavatın adına yaraşan, demokratik bir ölkəyə yaraşan şəkildə keçirmək istəyirdik. İstəyirdik ki, Azərbaycanımızın böyük, möhtəşəm salonlarının birində bu qurultay baş tutsun. Qurultay nümayəndələrinin rahat bir şəkildə fəaliyyət göstərə biləcəyi, minlərlə müsavatçının, minlərlə qonaqların şahidliyi ilə, iştirakı ilə keçən bir qurultay keçirmək istədik. Hakimiyyət bundan qorxdu və imkan vermədi. Ancaq bu şəraitdə də müsavatçılar Azərbaycanımızın ən uzaq bölgələrindən Bakıya gələrək seçkidə iştirak etməklə Müsavatın gücünü, möhtəşəmliyini və gələcəyə inamını bir daha nümayiş etdirirlər",- deyə o bildirib.

### "Müsavat Partiyası sıradan bir partiya deyil"

İ.Qəmbər bildirib ki, 1992-ci ildən Müsavat Partiyası Azərbaycanda fəaliyyətini bərpa edib: "İyirmi iki ildir ki, bu şərəfli missiyanı bizlər sizlərlə birlikdə daşıyırıq və bu dövrün hesabatını həm bir-birimizə, həm xalqa, cəmiyyətə verməliyik. Müsavat Partiyası sıradan bir partiya deyil. Müsavat Partiyası Azərbaycanın ən qədim partiyasıdır. Müsavat Partiyası dünyada yüz ildən çox yaşı olan, fasiləsiz olaraq fəaliyyət göstərən yeddi-səkkiz partiyadan biridir. Müsavat Partiyası Azərbaycanımızın mahiyyətini ifadə edən, ideologiyasını müəyyənləşdirən, siyasi inkişaf yolunu, gələcəyini müəyyənləşdirən bir qüvvədir. Yüz ildir ki, xalqımız bu yolu gedir və bu yüz ilin iyirmi iki ilinin bizim öhdəmizə düşməsi bizim üçün böyük bir şərəfdir".

İ.Qəmbər Müsavat Partiyasının qurulduğu ilk illərdən, Azərbaycanın müstəqilliyi yolunda apardıqları mübarizədən, partiya qurucularının apardıqları mübarizənin tarixindən söz açıb və deyib ki, bu mübarizədən bugünkü sələflərə pay düşməsi qürurverici hadisədir.

Müsavat Partiyasının fəaliyyətinin yerli və mühacirətdə keçdiyi illərdən söz açan başqan mübarizənin hədəflərini dönə-dönə xatırladıb: "Bütün bu dönəm ərzində Məmməd Əmin Rəsulzadə başda olmaqla onun silahdaşları Müsavatın Azərbaycanda fəaliyyətini davam etdirməsi, Azərbaycanın müstəqilliyinin bərpa olunması üçün mücadilə aparıblar, hədəfləri bu olub. Eyni zamanda, Azərbaycan xalqının da əslinə qalsa, hədəflərindən biri bu olub. Mən hesab edirəm ki, Azərbaycan xalqının 1920-ci ildən 1991-ci ilə qədərki mübarizəsində istiqlal əldə etmək, istiqlalı bərpa etmək hədəfi ilə yanaşı, Müsavat ideyasının, Müsavat Partiyasının Azərbaycana dönərək, Azərbaycanda fəaliyyət göstərməsi də əsas hədəflərdən biri olub".

### Ləyaqətli bir şəkildə bu yola davam...

O, həmçinin mübarizə yoldaşlarına, silahdaşlarına da təşəkkürlərini çatdırıb və onların mübarizəsini, əzmini minnətdarlıqla xatırlayıb: "Cəmil Ünalın təmsil etdiyi nəsil partiyamızı, Məmməd Əmin Rəsulzadənin bu əmanətini qoruyub saxlayıblar. Ləyaqətli bir şəkildə bu yola davam edib, 91-92-ci illərdə də Azərbaycanımıza təhvil verdikləri üçün, Azərbaycan Xalq Hərəkatının rəhbərliyinə və onun silahdaşlarına təqdim etdikləri üçün bir daha minnətdarlığımı bildirirəm. Və yeri gəlmişkən, həmin dönəmdə Müsavatın Azərbaycanda fəaliyyətinin bərpa olunması yolunda cəsarət göstərən, fədakarlıq göstərən, zərurət yarananda güzəştə getməyi bacaran Nəsib Nəsiblini, Rauf Arifoğlunu və digər dostlarımızı da hörmətlə xatırlayıram, təşəkkür edirəm".

### "Müsavat öz ləyaqətini və öz məğrurluğunu davam etdirib"

"İyirmi iki illik bir dönəmdə Müsavat öz ləyaqətini, öz məğrurluğunu davam etdirib. Müsavat Partiyası qısa müddətdə Azərbaycanın həlledici siyasi partiyasına çevrildi və bu gün də Azərbaycanın həlledici siyasi qüvvəsi kimi siyasi meydanda fəaliyyətini davam etdirir. Biz bu müddətdə hakimiyyətə gələ bilməmişik. Bizə də əsas irad tutulan məsələ budur ki, müxalifət iyirmi ildə hakimiyyətə gələ bilməyib. Yəni avtoritar rejimli ölkələrdə zorakı hakimiyyətlərin, cinayətkar rejimlərin formalaşdığı ölkələrdə hakimiyyətə gəlmək nə cür mümkündür, onu bilən də yoxdur",- deyə İ.Qəmbər müxalifətin iqtidara gələ bilməməsini əsaslandırıb. O, alman xalqının da 45 il kommunist rejimini dəyişə bilmədiyini misal çəkərək, Azərbaycanın da çətin durumda olduğunu vurğulayıb. "Azərbaycanda da hakimiyyətin dəyişməsi bu illər ərzində mümkün olsaydı, Müsavat buna nail ola bilmirdisə, başqa bir qüvvə nail olaydı. Əgər bu günə kimi bu, mümkün olmayıbsa, bu, şərtlərin buna imkan verməməsi deməkdir. Azərbaycanda vəziyyət beynəlxalq şəraitin imkan verdiyi şəkildə mövcuddur. Azərbaycanımızın üzərində bir ayı kölgəsi var. Daxildə bu, oliqarxik bir ayıdır. (Replika: ayıları kəsib yeyirlər. Ondan sonra bu barədə yazan qəzetlərə hücum edib onları bağlatdırmağa çalışırlar. Bu barədə yazan jurnalistlərə hücum edirlər, onları döyürlər, ayılıqlarını davam etdirirlər.) Beynəlxalq miqyasda da bu, rus ayısıdır. Kölgəsini Azərbaycanın üzərinə salıb Azərbaycanın inkişafına, çağdaş dünyada öz yerini tutmasına imkan vermir".

### "Müsavat özünün müəyyənləşdirdiyi dəyərlər uğrunda mübarizəsini davam etdirəcək"

Başqan qeyd edib ki, Müsavat Partiyası özünün müəyyənləşdirdiyi dəyərlər uğrunda ləyaqətli mübarizəsini davam etdirəcək və bütün bu naqisliklərə son qoymağa özündə güc tapacaq: "Çünki Azərbaycan xalqı buna qadirdir. Azərbaycan gəncliyi buna qadirdir və biz bunu edəcəyik".

Beynəlxalq birliyin ölkə müxalifətinə və azadlıq mübarizəsinə münasibətindən söz açan başqan onları prinsipial olmamaqda qınayıb: "Beynəlxalq aləm, azad dünya dediyimiz dünya, beynəlxalq təşkilatlar Azərbaycana münasibətdə, demokratik insan haqlarının kütləvi şəkildə pozulduğu bir çox ölkələrə münasibətdə prinsipial mövqe tutmurlar. Öz təşkilatlarının prinsiplərinə, normalarına uyğun mövqe tutmurlar. Onların üzvü olan Azərbaycan kimi ölkələrdə, Ermənistan kimi ölkələrdə, digər bir sıra avtoritar rejimli ölkələrdəki pozuntulara öz nizamnamələrinə uyğun münasibət bildirmirlər".

Ölkədə baş alıb gedən haqsızlıqdan, insan haqlarının pozulmasından, rüşvətxorluqdan, korrupsiyadan, ədalətsizlikdən danışan başqan qeyd edib ki, beynəlxalq aləm Azərbaycana münasibətdə prinsipial mövqe tutmur. Ancaq ölkədə haqsızlığın, ədalətsizliyin bu həddə olmasında Qərb günahkar deyil, bunun səbəbi Rusiyanın siyasətidir. O, 2003-cü ildə ölkədə keçirilən prezident seçkilərindən və onun saxtalaşdırılan nəticələrindən də danışıb. Qarabağ problemindən söz açan İ.Qəmbər problemin indiyədək həllini tapmamasını hakimiyyətin məqsədli siyasəti hesab edib. İ.Qəmbər deyib ki, bütün çətinliklərə, qadağalara baxmayaraq, vəziyyəti dəyişmək mümkündür: "Və bu, bizdən asılıdır".

### "Biz gerçək demokratiya nümunəsini təqdim edirik"

O, nizamnaməyə uyğun olaraq iki dəfədən artıq başqanlıq yarışına qatılmadığını da xatırladıb və deyib ki, bu, ölkədə onların təqdim etdiyi gerçək demokratiya nümunəsidir: "Biz gerçək demokratiya nümunəsini təqdim edirik". O, qurultay nümayəndələrinə müraciət edərək ümid etdiyini bildirib ki, onlar ən düzgün seçimlərini edəcək: "Mənsə Müsavatın əsgəriyəm, harada dur desəniz, orada da duracam".

### Cəmil Ünal: "İsa Qəmbər bundan sonra da xidmət edəcək"

Azərbaycan Kültür Dərnəyinin rəhbəri, M.Ə.Rəsulzadənin silahdaşı Cəmil Ünal isə çıxış edərək qurultay iştirakçılarına salamlarını çatdırıb və uğurlar arzu edib. O, milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin azadlıq, müstəqillik uğrunda apardığı çətin mübarizədən danışıb. Həmçinin bildirib ki, Müsavat başqanı İsa Qəmbər bundan sonra da Müsavata, müsavatçılığa və Azərbaycanın gələcəyinə xidmət edəcək.

### İsa Qəmbər 2018-də prezidentliyə namizəd olacaq

Müsavat Məclisinin sədri Arzu Səmədbəyli isə çıxışında bildirib ki, milli azadlıq hərəkatı iştirakçıları üçün Elçibəydən sonra sonuncu lider İsa Qəmbərdir. O, həmçinin qurultay üzvlərinə İ.Qəmbərin hesabat məruzəsi ilə bağlı qətnamə qəbul etməyi təklif edib. Əvvəlcədən hazırlanan qətnaməni tribunadan səsləndirən A.Səmədbəyli təklif edib ki, İ.Qəmbər 2018-ci il prezident seçkilərinə Müsavatın namizədi olsun. Bu təklif qurultay iştirakçıları tərəfindən alqışlanıb və qəbul edilib.

Qısa fasilədən sonra isə Nəzarət-Təftiş Komissiyasının hesabatı dinlənilib. NTK üzvü Əlövsət Talışxanlı həmçinin bildirib ki, şikayətlər araşdırılarkən partiya üzvlərinin hüquqlarının maksimum qorunmasına çalışılıb. Həmin hesabat qurultay nümayəndələri tərəfindən qənaətbəxş hesab edilib.

Sonra isə Nəzarət-Təftiş Komissiyasının üzvlüyünə namizədliyini vermiş 30 nəfərin adı açıqlanıb. Həmçinin Məclis üzvlüyünə namizədliyini verən 146 nəfər də qurultay iştirakçılarına təqdim edilib. Daha sonra başqanlığa namizədlər çıxış ediblər.

### Arif Hacılı: "Üçüncü respublikanın başında İsa Qəmbər dayanacaq"

İlk olaraq çıxış edən Arif Hacılı bu günün Müsavatın və ölkənin həyatında çox böyük əhəmiyyətli olduğunu vurğulayıb. O, başqan olmağa hazırlaşmasının səbəblərindən söz açıb və deyib ki, Müsavat Partiyası strukturlarına bələd olması, bir sıra aksiyalarda iştirakı bu səbəblər sırasındadır. O, Müsavatın fəaliyyətində öz gördüyü işləri qabardıb və deyib ki, bir çox hərəkətləri onun namizədliyini verməsinə zərurət yaradıb. A.Hacılı qeyd edib ki, bu, müsavatçıların da mənafeyinə uyğundur.

Öz platformasından danışan A.Hacılı uzun illər peşəkar siyasətlə məşğul olduğunu diqqətə çatdırıb: "Mən 28 yaşında millət vəkili seçilmişəm. Milli istiqlal hərəkatında mübarizə aparan liderlərin sırasında olmuşam. Əbülfəz Elçibəyin silahdaşı olmuşam, o, mənim müəllimim olub". A.Hacılı deyib ki, heç vaxt mövqeyini heç nəyə qurban verməyəcək. Heç nə, heç bir qüvvə onun mövqeyinin dəyişməsinə səbəb ola bilməz. Müsavat Partiyasından, apardıqları haqq mübarizəsindən, Rəsulzadə ideyalarından danışan A.Hacılı gələcəyə inamlı yanaşdığını vurğulayıb: "Üçüncü respublikanın başında İsa Qəmbər dayanacaq".

### Qubad İbadoğlu: "Məqsəd Müsavatı iqtidar partiyasına çevirməkdir"

Qubad İbadoğlu çıxışında birlikdən, partiya maraqları naminə birgə aparılacaq mübarizədən danışıb. Namizəd vurğulayıb ki, məqsədləri Müsavatı iqtidar partiyasına çevirməkdir. O qeyd edib ki, Müsavat həm də gələcəyin partiyasıdır. O, partiyanın keçmişindən danışıb və deyib ki, partiyanın ideyalarına, Azərbaycan ideyalarına sadiq qalacağını bildirib. O, partiyanı gücləndirəcəyinə, aparılan mübarizəni davam etdirəcəyinə söz verib: "Biz bu iqtidarı sizlərlə birgə yola salmaq üçün buradayıq".

### Səxavət Əlisoy: "Müsavatın apardığı mübarizə qələbə gətirəcək"

Namizədlərdən Səxavət Əlisoy bildirib ki, Müsavat Partiyasının hər bir üzvü partiyaya dividend gətirməlidir. "Bu iqtidar saxtakardır, biz belə olmamalıyıq",- deyə namizəd partiyanın qüvvətlənməsinin vacibliyini vurğulayıb. O, mitinq və aksiyalarla bağlı da danışıb və etiraz aksiyalarının keçirilməsinin vacibliyindən söz açıb. O, dəyirmi masalar keçirilməsinin, xalqla yaxın olmağın vacibliyindən də danışıb. O, Müsavatın apardığı mübarizənin qələbə gətirəcəyinə inandığını vurğulayıb.

### Tural Abbaslı: "Xalq artıq yeni sima istəyir"

Tural Abbaslı isə Müsavatın bir ailə olduğunu vurğulayıb və ailəsindən dəstək istəyib. O, başqanlığa digər namizədlərdən, onların şəxsi keyfiyyətlərindən və mübarizələrindən danışıb və hər birinin layiqli namizəd olduğunu söyləyib. "Amma bu illər ərzində bizim qazandığımız mənəvi qələbələr olub. Mən mənəvi qələbə istəmirəm". Tural Abbaslı 14 ildir ki, siyasi fəaliyyətlə məşğul olduğunu vurğulayıb və deyib ki, onun gənc olması başqan olmasına əngəl hesab edilməməlidir.

T.Abbaslı eyni zamanda müxalifət düşərgəsinin səhvlərindən danışıb. O, həmçinin müxalifətin iqtidarla dialoq aparmaq istəyini pisləyib: "Biz Siyavuş Novruzovun nəyi ilə dialoq etməliyik?" O qeyd edib ki, xalqın əksəriyyətini təşkil edən gənclər nə iqtidara, nə müxalifətə inanır: "Xalq artıq yeni sima istəyir".

### Arif Hacılı yeni başqan oldu- 447 səs necə bölündü

Seçki başlanan kimi isə Səxavət Əlisoy namizədlərdən Qubad İbadoğlunun xeyrinə namizədliyini geri götürüb və başqanlıq postu uğrunda mübarizədə üç namizəd- Arif Hacılı, Qubad İbadoğlu və Tural Abbaslı qalıb. Səsvermədə 449 nəfər iştirak edib. Bülletenlərdən 2-si etibarsız sayılıb. Yerdə qalan 447 nəfərdən 228-i Arif Hacılıya səs verib. Beləliklə, Arif Hacılı Müsavat Partiyasının yeni başqanı olub. Namizədlərdən Qubad İbadoğlu 200, Tural Abbaslı isə 19 səs alıb. İsa Qəmbər yeni başqanı təbrik edib və ona uğurlar arzulayıb. Həmçinin A.Hacılı da çıxış edərək azadlıq uğrunda mübarizənin davam etdiyini vurğulayıb. Həmçinin qurultayda Məclis üzvlərinin seçkisi və MNTK seçkisi də keçirilib. Daha sonra İsa Qəmbər hər 3 iddiaçını səhnəyə dəvət edib, onlar əl-ələ tutaraq, Azərbaycan siyasəti üçün nadir bir hadisə həyata keçiriblər.

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**













# Yeni başqan seçkisi nə vəd edir?

Azər RƏŞİDOĞLU

**27 sentyabr Azərbaycan siyasi tarixinə önəmli gün kimi düşdü. Müsavat Partiyası yeni başqan seçdi. Bununla da, son 20 il ərzində ən çox müzakirə edilən "əbədi sədr" ənənəsinə son qoyuldu. İsa Qəmbər sağdan və soldan təzyiqlərə baxmayaraq, üçüncü dəfə başqan olmaq istəmədi, seçki yolu ilə partiyadakı postunu təhvil verdi.**

İ.Qəmbər bəhanə axtarmadı. Hakimiyyətin zorakı metodlarını bəhanə gətirərək, sədrlik müddətini uzatmaq istəmədi. Partiya nizamnaməsinə uyğun olaraq, vaxtı çatanda, postunu tərk etdi. Azərbaycan siyasətinin ən önəmli simalarından biri olan İ.Qəmbər bu jesti ilə müxalifətdəki digər rəqiblərinə "ippon fəndi" işlətmiş oldu.

Digər aparıcı partiyalar da artıq seçim qarşısındadırlar. Artıq "nizamnamə oyunları" keçməyəcək. "İsa Qəmbər nümunəsi" digər partiyalar üçün də keçərlidir. Müsavatın sabiq başqanı "at gedişi" ilə müxalifətdəki əbədi rəqibini də suqsvanqa saldı.

20 illik məğlubiyyətlər müxalifətin yeniləşməsini zəruri edirdi. Əlbəttə ki, səbəb və nəticə barədə fəlsəfi diskussiyalar aparmaq da mümkündür. Lakin "mənəvi qələbə" artıq elektoratı təngə gətirib. İnsanlar real qələbə arzusundadırlar. Bu baxımdan, zəruri olan keyfiyyət əvəzlənməsinə nail olmaq üçün düşüncələrdəki paradiqmaların dəyişikliyinə nail olmaq son dərəcə mühümdür.

Müsavat artıq yeni başqanı ilə fəaliyyətinə davam edəcək. Arif Hacılı partiyanın yeni başqanı, İsa Qəmbər isə prezidentliyə namizəd oldu. Azərbaycan üçün bir qədər təzadlı təcrübədir. Sədr prezidentliyə namizəd olmursa, partiyanın artıq sıravi üzvü olan İsa Qəmbəri özündən daha nüfuzlu hesab edirsə, meydana çoxsaylı suallar çıxır. Görünən budur ki, partiyada əsas sima yenə də İsa Qəmbərdir. Düzdür, bu da müəyyən müddətə qədərdir. Bir qədər sonra yeni başqanın hansı addımlar atacağını heç kəs proqnozlaşdıra bilməz. Hər halda, Arif Hacılı təcrübəli, siyasi intriqaları gözəl bilən və kifayət qədər ambisiyaları olan siyasətçidir. Partiyadakı real hakimiyyətə tam nəzarət edəndən sonra A.Hacılının hansı addımlar atacağını yəqin ki, onun özündən başqa heç kəs bilmir. Arif Hacılı "İsa Qəmbərin kölgəsi" olmaq istəyəcəkmi? Çətin sualdır.

Müsavat qurultayı və başqan seçkiləri daha bir maraqlı məqamı ortaya çıxartdı. Müxalifətdə yeni bir qüvvə yaranmaqdadır. Yeni gənclik artıq özünün yeni liderini seçib. "1988-ci ildə harada idin" və yaxud ""Gəncə qiyamı" zamanı sən niyə belə dedin" metodları artıq işləmir.

Müsavat başqanlığına gəncliyin namizədi olan Tural Abbaslının elektoratı ötən əsrin 90-cı illərində anadan olan, siyasətdə ilk addımlarını atan yeni nəslin nümayəndələridirlər. Onlar üçün köhnə siyasi bütlər örnək deyil. Onların yeni liderləri var. Onlar "yeni dalğa gəlir, növbəti il daha maraqlı olur" şüarlarına inanmırlar. Səhvləri, çılğınlıqları ilə bərabər yeni qüvvə olan gənclik mübarizənin önündə olmağı sevir. Bu isə sevindiricidr.

Hər halda Müsavat belə bir örnəyi də ortaya qoya bildi.

Qurultay arxada qaldı. Son 20 ilin canlı əfsanələrindən biri olan İsa Qəmbər başqanlıqdan getdi. İ.Qəmbərin bir sözü ilə yüzlərlə müsavatçı hər fədakarlığa getməyə hazır idi. Bir başqan kimi İsa Qəmbər bir mübarizə simvolu idi. Ona qürurla başqanım deyə bilirdilər, onun bir baxışını tutmaq üçün saatlarla partiya qərargahı önündə keşik çəkən müsavatçılar var idi. Arif Hacılı isə bütün müsbət keyfiyyətlərinə baxmayaraq, kumir deyil, maraqların ifadəçisidir. Savadlı siyasətçidir, ağıllıdır, qətiyyətlidir, lakin İsa Qəmbər deyil.

Son dərəcə gərgin vəziyyətdən ağlasığmaz yumorlu atmacaları ilə çıxmağı bacaran İsa Qəmbərdən fərqli olaraq, A.Hacılı daha emosionaldır. Bu isə Müsavat və digər müxalifət partiyaları ilə, o cümlədən, mətbuatla problemləri daha da qabarda bilər.

Hacılı layiqli namizəddir. Müsavat başqanı olmağa mənəvi haqqı çatan bir siyasətçidir. Həbsxanalardan keçən, ən çətin anlarda öndə olan, Əbülfəz Elçibəy iqtidarının ən önəmli simalarından biri olan siyasətçidir. Lakin İsa Qəmbərin başqanlığı qəbul edən "köhnə qvardiya"nın heç də hamısı onun liderliyini qəbul etməyə hazır deyil. Odur ki, ictimai rəydə belə bir fikir dolaşmaqdadır - İsa Qəmbərsiz Müsavat da əvvəlki partiya olmayacaq.

Bəziləri düşünür ki, öncəki Müsavata ehtiyac belə yoxdur. Son 20 ilin məğlubiyyətləri dəyişiklik tələb edirdi. İnsanlar düşünürdülər ki, partiyalara yeni sədr seçmək lazımdır. Yeni baxışları gətirəcək bir lider lazımdır. A.Hacılı isə bütün üstün keyfiyyətlərinə baxmayaraq, son 20 ilin məsuliyyətini çiyinlərində daşıyan bir simadır. Xalq isə yeni sima istəyir. 20 ilin məğlubiyyətini unutduracaq simanı gözləyir...



# Rəsul Quliyevin 2640 manatı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Müsavat Partiyasının 4 il gözlənilən qurultayı haqda bundan sonra da çox danışılacaq. Təkcə ona görə yox ki, aparıcı müxalifət partiyasının ali toplantısı uzun illərdən sonra baş tutub, yaxud müxalifətin parlaq siması olan keçmiş başqan postunu xələfinə təhvil verib. Bu müzakirələri aktual edən həm də odur ki, Müsavat partiyadakı seçki keçirməklə növbəti dəfə bir ilkə imza atıb, kimin nə deməsindən asılı olmayaraq.**

Ölkədə ayrı bir ilkə də ehtiyac var, iqtidarlı-müxalifətli bütün qüvvələrin siyasi mədəniyyət nümunəsini nümayiş etdirib bir-birinin seçimlərinə, qurultaylarına "mübarəkdir" deməsinə. Ən azı Türkiyə nümunəsinin tətbiqi lazım. Təqribən xeyir-şər məsələsinə çevrilməlidir partiyalar arasında bu məsələlərə münasibət. Ancaq biriləri var ki, bəzən xeyir-şəri də unudur, ölüm-itimi də. Məsələn, eks-spiker Rəsul Quliyevin Müsavat qurultaylına reaksiyası buna sübutdur. Az qala 20 ildir Amerikada oturub millətə yol göstərməyə çalışan Rəsul bəy bu dəfə də ənənəvi mövqedən çıxış edib, öz aləmində Müsavatı aşağılayıb.

Onun yanaşmasına baxın: "Məlum oldu ki, Müsavat Partiyasının pulu olmadığına görə ancaq 12 saatlıq qurultay keçirə bilər. Əlavə bir gün qurultaylarını uzatmaq üçün 2640 manat pul tapa bilməyən partiya hansı prezident seçkisində iştirak edəcəyindən dəm vurur? İldə 2 milyard manatdan çox əmək haqqı alan 5 milyon azərbaycanlıdan 2640 manat ianə verməyə bir 50 nəfəri tapa bilməyən partiyanın özünü ana və ya bala müxalifət adlandırmağa haqqı varmı?" Arqumentlərin gücünü gördünüzmü? Ana müxalifətçiliyin əsas şərti pullu olmaq imiş...

Rəhmətlik Elçibəy deyəsən, belə demişdi: "Burdan uçub Amerikaya düşməklə demokrat olmaq mümkün deyil". Üstündən xeyli vaxt keçib və görünən budur ki, Rəsul bəy hələ də demokrat ola bilməyib. Belə yanaşma tərzinə demokrat demək olarmı? Bir partiyanın gücü onun pulunda idisə, məntiqlə R.Quliyevin ADP, ya ACP-si gərək iqtidarda olaydı. Pul çox şey demək olsa da, heç də hər şey demək deyil, bunu illərin acı təcrübəsi göstərib. Digər tərəfdən, Müsavat daim etiraf edib ki, fədakar üzvlərinin cüzi ianəsinə arxalanır. Ancaq pulsuzluğa görə qətiyyən utanc hissi keçirtmir, fəxr edir ki, Azərbaycanın şərəfli keçmişində böyük rol atıb, bayraq ucaldıb, müstəqillk qazanıb.

Anlaşılandır, müstəqilliyə münasibətdə bitərəf olanlar belə şeylərin dəyərini verə bilməz. Ancaq absurdun da bir həddi-hüdudu olmalıdır. Soruşmaq lazımdır ki, Rəsul bəy, bəs siz özünüz bu illərdə Azərbaycan demokratiyası, müxalifəti, ümumiyyətlə, Azərbaycan məmləkəti üçün nə etmisiniz? Bəlkə Amerikada, ya Avropada təhsil alan gənclərimizə nə vaxtsa maliyyə yardımı edib, onların öz potensialını Azərbaycan üçün sərf eləməsinə yatırım qoyubsunuz?

Müsavata pulsuzluğuna görə rişxənd edən Rəsul müəllim bəlkə Azərbaycanın diaspor təşkilatlarına 50 dollar yardım edib, deyib axı siz Azərbaycan adına mübarizə aparırsınız. Olmaya eks-spiker Azərbaycan ərazilərini işğalda saxlayan ermənilərlə mübarizəyə hansısa töhfə verib, yazdığı Qarabağ romanından əlavə? Bəlkə bir Qarabağ konfransı təşkil edib? Rəsul Quliyevin demokratiyaya töhfəsini də 2005-ci il seçkilərində gördük, "gəlirəm" deyib müxalifətin olan-qalan şanslarını da zərbə altına qoymadımı?

Siyavuş Novruzov və Zahid Oruc da Müsavat qurultayı haqqında tənqidi fikirlər deyib. anlaşılandır. Daha normal olardı ki, iqtidar təmsilçiləri də yeni bir ənənənin əsasını qoyaraq bir partiyanın ali məclisinə yönəlik xoş sözlər desin. Təqribən toy eləyənə "toyun mübarək olsun" deyilən kimi. Ancaq deməyiblərsə, hakimiyyətin xəttinə uyğun davranıblarsa da, təəccüblü bir şey yoxdur. Lakin özünü müxalifət adlandıran birinin okeanın o tayından Müsavatın qurultayını "əcaib" adlandırmasının özü əcaib səslənir.

Zamanında öz komandasından üz çevirən, illərdir Azərbaycan reallıqlarından bixəbər qalan eks-spiker ola bilsin ki, Vətən üçün qəribsəyib, qayıtmaq üçün Müsavatı hədəf seçib. Anlaşılandır, ancaq bu yolu burda illərdir cəfa çəkənlərin yerli-yersiz vurulması hesabına açılması da doğru hal deyil. Ən azı İsa Qəmbərin 2005-ci il seçki çıxışında Rəsul Quliyevlə bağlı dediyi müsbət fikirləri unutmamaq lazım idi. Əfsus, "demokratiyanın beşiyi"ndə illərcə sürən mühacirlik həyatı da düşüncələrdə dəyişikliyə gətirib çıxarmadı...

# "Bələdiyyə sədrinin intiharına külli miqdarda rüşvət tələbi səbəb olub"

## Vidadi İsgəndərlidən nəqliyyat nazirinin icra başçısı olan qohumuna şok ittihamlar

**Hüquq müdafiəçisi Vidadi İsgəndərli Göyçay rayonunda bələdiyyə sədri Mahmud Şıxməmmədovun intiharını müstəqil şəkildə araşdırıb. V.İsgəndərli ilə əlaqə saxlayıb araşdırmasının nəticəsi ilə maraqlandıq. V.İsgəndərli musavat.coma açıqlamasında dedi:**

- Öncə qeyd edim ki, Mahmud Şıxməmmədovla mən hələ həbs olunmamışdan qabaq tanış idim. 2010-cu ildə ona zarafatla dedim ki, bəs Mansur Məmmədov Göyçayı talan edib, səkiləri də satıb. Mənə 10 sot kənd ətrafında torpaq verə bilərsinizmi? Hələ o vaxt mərhum mənə dedi ki, Mansur Məmmədov Göyçayda torpaq alqı-satqısını nəzarətə götürüb. Bir qarış yer onun razılığı olmadan satıla bilməz. Onun intiharı Göyçayda tüğyan edən rüşvət və korrupsiya ilə bağlıdır. Rayon prokurorluğuna Göyçay rayon Xəlitli kəndində məskunlaşmış qaçqınlar müraciət edib. Deyiblər ki, Mahmud Şıxməmmədova torpaq almaq üçün pul veriblər. O da həmin pulu Mansur Məmmədova verib. Məmmədov onlarla vətəndaşların pulunu alıb, sənəd verməyib. Rayon prokurorluğuna qaçqınlar mərhumdan şikayət ediblər. Mərhum Şıxməmmədov vasitəçilərə deyib ki, Mansur müəllimə bu barədə desinlər. Məmmədov da heç bir reaksiya verməyib və alınmış pulları geri qaytarmayıb. Mərhum məcbur olub dost-tanışlarından borc alıb rayon prokurorluğunda şikayətçilərin pulunu geri qaytarıb. Bundan sonra həmin şəxslər ərizələrini geri götürüblər. Bir müddət sonra mərhumu yenə prokurorluğa dəvət edib bildiriblər ki, o, 10 min manat yenidən qaçqınlara verməli, 5 min manat isə cinayət məsuliyyətinə cəlb edilməmək üçün pul gətirməlidir. Şıxməmmədova 15 min pulu ödəməsi üçün 22 sentyabra kimi vaxt qoyulub. Mahmud Şıxməmmədov 2 gün bankların, dost-tanışın qapılarını gəzib. Amma pul tapmayıb. Və 22 sentyabrda tezdən intihar edib.

***- Dediklərinizin nə dərəcədə əsaslıdır, fakta əsaslanırmı?***

- Mən hüquqşünasam, uzun müddət prokurorluq orqanlarında çalışmışam. Analoji hadisə 2001-ci ildə İsmayıllı Prokurorluğunda müstəntiq işləyərkən baş vermişdi. İsmayıllı rayon Mican kənd sakini, hansısa bir varlı şəxsin mal-qarasına baxan Həsrət Rüstəmov bir məcburi köçkünlə mübahisə zəminində onun üstünə avtomat çəkmişdi. Material polisin təhqiqatçısında idi. O vaxt İsmayıllı rayon prokuroru əvəzi Mübariz Nəcəfov ona 50 qoyunu satdırıb pulunu rüşvət kimi almışdı. Sonra tamahını saxlaya bilməyib yenə ondan rüşvət istəmişdi. Həsrət Rüstəmov da qalan mal-qarasını qorumaq üçün özünü Acıdərə deyilən otlaq sahəsində ağacdan asmışdı. O vaxt mən Mübariz Nəcəfovla hadisə yerinə getdik. Nəcəfov dərhal onun ciblərini axtardı və mərhumun cibindən ölümün səbəblərini açıqlayan yazını götürdü. Mən CM-nin 125-ci(özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başladım. Baş prokuror Zakir Qaralovun yanına getdim. O məni qəbul etmədi. Onun idarə rəislərindən birinə Nəcəfovun törətdiyi cinayət barədə məlumat verdim. Geri dönüb cinayət işini Nəcəfova verdim, dedim necə öldürmüsən, indi özün istintaq elə. O da Tircan bələdiyyəsinin sədrini bu cinayətdə suçlayıb ona ittiham verdi. Hadisədən qabaq onların arasında söz-söhbət olmuşdu. O vaxt Rəşid İslamov 300 yaxın ərizə yazmışdı ki, mərhumun ölümünə səbəb ondan rüşvət alınmasıdır. Mən o vaxt Qaralovun adına ərizə yazıb prokurorluq orqanlarından istefa verdim. Ərizəni qəbul etməyərək prokurorluğa yoxlama göndərdilər. Və heç bir qanun pozuntusu aşkar etməsələr də, qanunsuz işdən azad etdilər.



Vidadi İsgəndərli



Ziya Məmmədov

2000-ci il sentyabrın 1-də CM-də dəyişikliklər edildi. Qabaqlar prokurorluq orqanları istədiyi cinayət hadisəsini istintaq etmək hüququ var idi. Qanunda qeyd edilib ki, əgər hər hansı bir orqana istintaq aidiyyəti olmayan material daxil olarsa, o material dərhal aidiyyəti orqana göndərməlidir. Prokurorluğun verdiyi məlumata əsasən Mahmud Şıxməmmədov barəsində 178.3.2 maddəsi ilə 20 sentyabrda cinayət işi başlanıb və dərhal RPİ-nin İstintaq Şöbəsinə göndərilib. Bu, tam qanunsuz və əsassızdır. Kim rayon prokurorluğuna səlahiyyət verib ki, ona aidiyyəti olmayan dələduzluğun "razborka"sını aparsın? Çox güman ki, bu cinayət işi intihardan dərhal sonra arxa tarixlə başlanıb. Çünki 100 illik praktikada hələ belə hadisə baş verməyib ki, kiminsə barəsində cinayət işi başlayasan, o da səhəri gün özünü asa. Fikir verin, Mahmud Şıxməmmədov intihar edəndən sonra prokurorluq dərhal faktla bağlı CM-nin 125-ci maddəsi ilə cinayət işi başlayır. Bilirsiniz hansı səbəbdən? İndi formal istintaq edib belə nəticəyə gələcəklər ki, borcu olduğundan intihar edib. Əminliklə deyə bilərəm ki, Azərbaycanda ən azı 100 minlərlə insanın banklara, fiziki şəxslərə və s. borcu var. Kimsə bu səbəbdən intihar edir? Məlumat üçün deyim ki, bu gün Azərbaycan xalqının təkcə banklara 15 milyard borcu var.

***- Göyçaya səfəriniz zamanı daha hansı məlumatlar əldə etdiniz?***

- Göyçaya bu intiharı araşdırmaq niyyəti ilə səfərimin olacağını eşidən kimi rayon rəhbərliyi başda icra başçısı Mansur Məmmədov olmaqla mərhumun hüzr mərasiminə gediblər. Mansur Məmmədovun tapşırığı ilə mərhumun yaxınları ilə qeyri-rəsmi söhbətlər aparılıb, bütün problemlərini icra başçısının öz üzərinə götürdüyünü deyiblər. Şərtləri də bu olub ki, onlar şikayətçi olmayacaqlar və bu işin araşdırılmasında Vidadi İsgəndərliyə heç bir formada kömək etməyəcəklər. Əlavə olaraq onu da bildirmək istəyirəm ki, mən rayonda olanda bir neçə bələdiyyə sədrləri ilə görüşdüm. Onlar dedilər ki, Mansur Məmmədov qarşıdan gələn bələdiyyə seçkilərinə yenə "stavka" qoyub. Rayonda belə xəbərlər dolaşır ki, Mahmud Şıxməmmədovdan 20 min manat tələb edilib. Bələdiyyə sədrləri üçün rüşvət 5 mindən 30 minə kimidir. Qiyməti bələdiyyə torpaqlarının münbitliyi müəyyən edir. Mənə dedilər ki, biz Mansur Məmmədova başa sala bilmirik ki, daha torpaq qalmayıb. Artıq kəndlərdə səkilər də satılıb. O isə "yox" sözünü anlamır. Xahiş etdilər ki, ictimaiyyətə çatdırım ki, nəqliyyat naziri Ziya Məmmədov bilərəkdən kurasiyasında olan Göyçayda, Ucarda, Zərdabda elə bir despotik şərait yaradıb ki, sanki bu əhalinin mövcud hakimiyyətə qarşı (Qubada olduqu kimi) üsyanına şərait hazırlayır. Bütün bunlar acı həqiqətdir. Ancaq indi bu cinayətlərin açılmasında heç kim maraqlı deyil.

***- Mərhumun yaxınlarına çatdırdım ki, təmənnasız onlara vəkillik etməyə hazıram ki, Mənsur Məmmədov bir daha insanları intihar etməyə məcbur etməsin.***

- Xatırladım ki, Mansur Məmmədov Zərdabda başçı işləyərkən rayon səhiyyə şöbəsinin müdirini kabinetinə çağırıb ondan 50 min rüşvət istəmişdi. Sonuncu elə icra hakimiyyətində bu sözləri eşidib infarkt keçirərək vəfat etmişdi. Bu adam bir neçə nəfərin ölümünə səbəb olub. Yəqin mərhum Şıxməmmədovun da qanını o birilər kimi batıracaqlar.

***- Sizə qarşı terror hadisəsinin istintaqının nəticəsi nə ilə yekunlaşdı ?***

- Bu, analoqu olmayan bir hadisədir. 4 aydır yoxlama gedir, hələ heç bir nəticə yoxdur.

*V.İsgəndərli Göyçayda barəsində dövriyyəyə buraxılan şayiələrdən də danışdı: "Məmmədovlar şayiə yayırlar ki, guya onlar mənə villa bağışlayıblar. Digər nazirlər pul, var-dövlət veriblər. Bu şayiələri yayan təxribatçılara bildirirəm ki, əqidə insanın şərəf və ləyaqətidir, o satılmır, girov qoyulmur, dəyişdirilmir. Sadəcə hər şeyin zamana ehtiyacı var.*

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.** Yazıda adı hallanan hər bir kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# "Rusiya Qarabağın açarını elə dərinlikdə gizlədib ki..."

## Ekspert Jirinovskinin iddialarını əsaslı sayır, amma...

**Bakıda səfərdə olan Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski deyib ki, Dağlıq Qarabağ münaqişəsinin açarı Kremlin əlindədir. Əlbəttə, bu ifadə yeni deyil. Uzun illər Azərbaycan siyasətçiləri, sahə ekspertləri bunu bildiriblər. Ancaq bu ifadənin Rusiya hakimiyyətinə çox yaxın, hətta Putinin demək istədiklərini deyən biri olan Jirinovski tərəfindən səsləndirilməsi maraq doğurur.**

Siyasi şərhçi Elxan Şahinoğlunun fikrincə, münaqişənin açarlarından yalnız biri Kremldədir, o biri ikisi isə Azərbaycan və Ermənistandadır. Ekspertə görə, istənilən halda münaqişənin həli bu üç dövlətdən keçir: "Heç kim bizə torpaqlarımızı işğaldan azad etməyi qadağan edə bilməz. Lakin məsələnin praktik tərəfi və sualları var. Azərbaycan ordusu Ağdam, Füzuli və digər rayonları azad etmək üçün hərbi əməliyyata başlasa, Ermənistan Qarabağdan kənar istiqamətlərdə, məsələn, Tovuz və Qazaxda və ya digər sərhədboyu istiqamətlərdə bizə problem yaratmayacaq ki? Və ya Rusiyanın Ermənistana hərbi dəstəyi özünü hansı şəkildə və necə göstərəcək? Bu iki sual açıq qaldığı üçün də Azərbaycan əlində olan açardan istifadə etməyə tələsmir. İkinci açar Ermənistanın əlindədir. Yəni əgər İrəvan sonsuzadək Azərbaycan və Türkiyə ilə düşmənçilik etmək istəmirsə, qonşularla əlaqələri normallaşdırıb regional əməkdaşlığa qoşulmaqla bölgəyə sülh, sabitlik və Ermənistana inkişaf gətirmək istəyirsə, əlindəki açardan istifadə edib Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına və qaçqınların geri qayıtmasına şərait yaratmalıdır. Sadəcə, Ermənistanda mövcud olan indiki kriminal və separatçı rejimin belə bir addım atacağını gözləmək əbəsdir. Deməli, Ermənistanın əlində olan açar paslanmaqda davam edəcək".


Elxan Şahinoğlu

E.Şahinoğlu deyir ki, hazırda şərtlər xeyli dərəcədə dəyişib və Rusiyanın özünün durumu elə də yaxşı deyil. Ekspertə görə, indiki şəraitdə Rusiyanın özünün Azərbaycana ehtiyacı var: "Hazırda Rusiyanın quyruğu qapı arasındadır. Krımın işğalına və Ukraynanı parçaladığına görə Rusiya Qərbin sərt sanksiyaları ilə üz-üzədir. Kreml özünü o yerə qoymasa və "bu sanksiyalar bizə təsir etmir" desə də, Rusiyanın maliyyə və iqtisadi vəziyyəti xeyli ağırlaşıb. Ərzaq və meyvə məhsullarına ehtiyacı yaranıb. Ona görə də Azərbaycana işləri düşüb, bizdən bol-bol meyvə-tərəvəz istəyirlər. Rusiyadan gələn-gedənin sayı-hesabı yoxdur, hətta Vladimir Jirinovski kimi anti-Azərbaycan və anti-türk mövqeli siyasətçisi belə Kremlin əmri ilə Bakıya gəlir və mövqeyində 180 dərəcə dəyişiklik edərək başlayır bizi tərifləməyə. Moskvanın meri də iş-gücü atıb nahaqdan Bakıya gəlməyib. Moskva qışa hazırlaşır, meyvə və tərəvəzə ehtiyacı var. Belə olan halda anlaşılmaz vəziyyət nədədir? Rusiya ağır vəziyyətdə müttəfiqi Ermənistandan yox, bizdən kömək istəyir, ancaq Dağlıq Qarabağ məsələsində yenə İrəvanın yanındadır".

Ekspertin fikrincə, Azərbaycan hakimiyyəti Rusiya ilə yaxınlaşmaq siyasəti yürüdür. E.Şahinoğlu deyir ki, Rusiyadan rəsmilərin nəvazişlə qarşılanıb, mehribanlıqla yola salınmasının əsas məqsədi Kremlin Qarabağ siyasətinin dəyişməsidir. Ancaq hələlik bu dəyişiklik hiss olunmur: "Əlbəttə, münasibətin dəyişməsini hər birimiz istəyirik, hətta buna görə Jirinovskiyə də Bakıda dözməyə hazırıq. Məsələn, əməldə sübut olunsa ki, Moskvanın vasitəçiliyi ilə işğala son qoyulacaq və Dağlıq Qarabağ Azərbaycanın tərkibində həyata davam edəcək, Avrasiya İqtisadi Birliyi ilə Gömrük İttifaqına üzvlüyü də müzakirə etmək mümkündür. Ancaq axı Rusiya əməldə bizə heç nə göstərmir, ortada sadəcə yalançı vədlər var, deyirlər ki, "bizim qurumlara qoşulun, sonrası düzələn işdir". Bu vədə inanıb Rusiyanın layihələrində yer almaq bizi Kremlin təsiri altına salacaq və belə olan halda Azərbaycanın Ermənistandan fərqi qalmayacaq. Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllinin açarını qoyub seyfə və həmin seyfin açarını da elə dərinlikdə gizlədib ki, ondan istifadə etməyə nə istəyi, nə də həvəsi var".

❑ KƏNAN


Filipp Kaltenbax

## Erməniпərəst deputatdan maraqlı açıqlama

### "İlham Əliyev Qarabağı güzəştə getməyəcək..."

**Ermənistanda səfərdə olan Fransa Senatının üzvü, Fransa-Ermənistan Dostluq Qrupunun üzvü Filipp Kaltenbax İrəvanda bəzi açıqlamalarla çıxış edib. Musavat.com-un erməni KİV-ə istinadən verdiyi xəbərə görə, deputat macal tapıb işğal altındakı Dağlıq Qarabağa qanunsuz səfər də edib.**

Qarabağ probleminin həlli perspektivindən danışan ermənipərəst fransız Azərbaycan prezidenti İlham Əliyevin həddən ziyadə sərt mövqe sərgilədiyinə diqqət yönəldib. "Əliyevin tərəfindən hansısa güzəşt gözləməyi təsəvvürə gətirmək çətindir. Həmsədrlərin səylərinə baxmayaraq, aydındır ki, danışıqlar prosesi çox çətinliklə irəliləyir", - deyə o qeyd edib.

# Rusiya Xəzər dənizini hərbiləşdirir




## **Qabil Hüseynli:** "Görünür, rəsmi Moskvanın və Tehranın şübhəsi var ki, bu bölgədəki ölkələrdən hansısa Qərblə münasibətlərini daha da inkişaf etdirər, dənizə hərbi qüvvələri gətirər..."

**Xəbər verdiyimiz kimi, sentyabrın 29-da Həştərxanda IV Xəzər sammiti keçiriləcək. Artıq sammitin bəyanatının mətni hazırlanıb. Bir sıra ekspertlərə görə, Həştərxan sammitində Xəzərin statusunun müəyyən olunması ilə bağlı müqavilə imzalanmasa belə, 5 Xəzəryanı dövlətin liderləri mühüm əhəmiyyət daşıyan bəyanatı imzalayacaqlar.**


Qabil Hüseynli

Rusiya prezidentinin köməkçisi Yuri Uşakov mətbuata açıqlamasında bir sıra mühüm məqamları qeyd edib. Putinin köməkçisi bildirib ki, dövlət başçılarının yekun bəyanatında region iştirakçısı olmayan dövlətlərin silahlı qüvvələrinin Xəzərə buraxılmaması əksini tapıb.

Y.Uşakovun sözlərinə görə, əsas məsələ Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsidir: "Ekspertlərin fəaliyyəti nəticəsində bəyanatda akvatoriyanın delimitasiyası üzrə razılaşdırılmış müddəaları əks etdirmək mümkün olub. Orada iki zona təsbit ediləcək: Dövlətlərin suveren zonası və yalnız balıqçılığa dair hüquqların veriləcəyi zona. Bu iki zona 25 dəniz mili təşkil edəcək".

Sammitdə üç hökumətlərarası razılaşmanın imzalanması planlaşdırılır. Bunlar: Xəzər dənizində fövqəladə vəziyyətlərin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Müqavilə, Xəzər dənizinin su bioloji resurslarının rasional istifadəsi haqqında Müqavilə və Xəzər dənizi regionunda hidrometeorologiya sahəsində əməkdaşlıq haqqında Müqavilədir.

Ancaq təbii ki, əsas diqqət çəkən məqam bəyanatda qeyd edilən kənar dövlətlərin silahlı qüvvələrinin Xəzərə buraxılmamasıdır. Məsələ burasındadır ki, 5 sahil dövlətindən başqa Xəzərə digər dövlətlərin daxil olması mümkün deyil, bunun üçün, təbii ki, 5 dövlətdən birinin razılığı və ya dəvəti lazımdır. Məlum məsələdir ki, Xəzərdə hazırda əsas güclü silahlı qüvvəyə malik olan dövlətlər İran və Rusiyadır. Yerdə qalan Qazaxıstan və Türkmənistanın isə Xəzərə 3-cü ölkənin silahlı qüvvələrini cəlb etməsi perspektivi isə faktiki olaraq yoxdur. Yerdə qalır yalnız Azərbaycan. Məsələ burasındadır ki, Azərbaycan hökuməti Xəzərdəki qüvvələrini təkmilləşdirmək üçün ABŞ və İsraillə yaxından əməkdaşlıq edir. Bu isə Rusiya və İranı təbii olaraq narahat edir. Bu mənada sözügedən bəndin məhz Azərbaycana görə qeyd olunduğunu demək olar.

Politoloq Qabil Hüseynli deyir ki, bəyanata salınan həmin cümlə əslində Rusiyaya əks olan və ya Rusiyanın özünün dediyi kimi "soyuq müharibə" apardığı ölkələri nəzərdə tutur. Ekspertə görə, Tehran və Moskva Azərbaycan vasitəsilə 3-cü ölkənin Xəzərə gəlişindən narahatdır: "Birinci növbədə Amerika. Çünki Amerika artıq bir neçə dəfə Azərbaycana bir neçə sahil mühafizə katerləri göndərib. Eyni zamanda sahilboyu müxtəlif katerlərin və ağır tonnajlı gəmilərin hərəkətini müşahidə etmək üçün sahildə radar qurğuları quraşdırıb. Məqsəd qaçaqmalçılıq və qeyr-qanuni balıq ovuna qarşı daha effektiv mübarizə idi. Yəni sırf Azərbaycana kömək idi. Görünür, Rusiyanın və İranın şübhəsi var ki, bu bölgədəki ölkələrdən hansısa Qərblə münasibətlərini daha da inkişaf etdirər və Xəzərə hərbi qüvvələri də gətirə bilər. Bura hərbi gəmilər və ona bağlı sahil infrastrukturları daxildir. Bunun qarşısını almaq üçün indidən belə bir maddəni bəyanata salırlar".

Ümumilikdə isə Q.Hüseynliyə görə, Həştərxan sammitinin gərgin keçəcəyi gözlənilir: "Çünki dənizin birtərəfli qaydada Rusiya tərəfindən hərbiləşdirilməsi həyata keçirilib, bu da narahatlıq doğurmaya bilməz. Sammit ərəfəsində yeni və kifayət qədər müasir hərbi gəminin Həştərxanda suya buraxılması sammitin ruhuna uyğun hərəkət deyildi. Amma ruslar bunu etdilər".

Q.Hüseynli deyir ki, Xəzərin statusu ilə bağlı da müəyyən razılaşmaların olduğu söylənilsə də, hazırda daha çox iki variant üzərində təhlillər aparılır: "Bəzi rus politoloqları Xəzərin statusunun 1943-cü ilin mayında SSRİ ilə İran arasında imzalanmış müqaviləyə əsasən tənzimlənməsini irəli sürürlər. Yəni "Xəzərin statusu daha əvvəldən müəyyənləşib" kimi absurd fikir irəli sürürlər. Amma sağlam düşüncəli insanlar başa düşür ki, Xəzərin statusu Xəzəryanı ölkələrin maraqlarına və qonşuluq münasibətlərinə uyğun tənzimlənməli və dənizlə bağlı mübahisələrə, hətta bəzən qarşıdurma səviyyəsinə çatan fikir ayrılıqlarına son qoyulmalıdır. Sammit ərəfəsi müxtəlif nöqteyi-nəzərlər var. Biri 1943-cü il sazişini müdafiə edən nəzərdir. Daha bir rəy Xəzərin statusunun hər bir ölkənin sahil xətləri və orta xətt prinsipi üzrə müəyyən edilməsi istiqamətində konsensusa doğru irəlilənir. Çox güman ki, bu istiqamətdə razılıq əldə edilə bilər. Bu sammitdə də olmasa Astanada keçirilməsi nəzərdə tutulan sammitdə Xəzərin statusuna dair müqavilə imzalana bilər. Orta xətt prinsipinə İranın narazı olduğu, Türkmənistanın tərəddüd duyduğu bəllidir. Son zamanlar Rusiyada da bu məsələdə müəyyən tərəddüdlər müşahidə olunur. Bu mənada yekun razılaşmanın hansı prinsiplər üzərində olacağını indidən söyləmək olmaz".

❑ KƏNAN

**Ayağındakı problemlər səbəbindən yerimək qabiliyyətini itirən Qarabağ qazisi Rüxsarə Cumayevanın qayğıya ehtiyacı var. Çoxlarının Tutu kimi tanıdığı Rüxsarə xanım müharibə illərində əlil olduğu halda ön cəbhəyə, atəş xəttinə yollanıb, tibb bacısı kimi orduda xidmət edib. Rüxsarə xanım 1963-cü ildə Zaqatala rayon Bəhmədli kəndində anadan olub. İxtisasca filoloqdur, eyni zamanda tibb bacısıdır.**

# Qarabağ qazisi əməliyyat üçün dövlətdən kömək istədi

## Rüxsarə Cumayeva üçün 18 min manat tapılacaqmı?







Təhsilini yarımçıq qoyub cəbhəyə gedən Tutu xanım müharibə dövründə yüzdən çox əsgəri xilas edib.

Səhhətində olan problemlərə rəğmən Qarabağ döyüşlərinə könüllü gedən Tutu xanımın vəziyyəti ilə maraqlanmaq üçün onun evinə yollandıq.

Qarabağ qazisi Nəsimi rayonu, Ş.Əzizbəyov küçəsi 170/9, mənzil 7 ünvanında 10 kvadratmetrlik kiçik mənzildə yeganə qızı ilə birgə yaşayır. Qapıda bizi Rüxsarə Cumayevanın qızı Rəqsanə qarşılayır. İçəri daxil olub ayağa durmaqda çətinlik çəkən Tutu xanımı divanda uzanmış halda görürük. Deyir ki, artıq neçə ildir günü bu divanda uzanmaqla keçir və ayağındakı problemlər onu yerimək imkanından məhrum edib. Kiçik, yarıqaranlıq mənzilə baxanda ailənin maddi durumunu təxmin etmək çətin olmur.

Maddi durumu ağır olan Rüxsarə xanım əlilliyə görə aldığı müavinətin və dost-qardaş köməyinin hesabına dolanır. İndi onun ayağındakı problemin həlli üçün əməliyyata, əməliyyat üçün isə 18 min manata ehtiyacı var: "Ayağımda uşaqlıqdan problem olub. Ancaq buna baxmayaraq, Qarabağ döyüşlərində iştirak etmişəm. Müharibədə yaralansam da, döyüşü tərk etmədim. Bu gün də həmin günlərin ağrısını çəkirəm, bədənimdə qəlpələr hələ də qalır. Təbii ki, müharibədə qəlpə yarası da, ölüm də ola bilərdi. Ancaq indi mənim qoruduğum bu dövlətin, bu xalqın dəstəyinə ehtiyacım var".

Xatırladaq ki, Rüxsarə Cumayeva ayağında yaşadığı problemlərlə bağlı dəfələrlə əməliyyatlar keçirib, əməliyyatlardan biri isə iyulun 29-da Türkiyədə Ankaranın Nümunə xəstəxanasında baş tutub və 12 saat davam edən əməliyyat uğursuz olub. Qarabağ qazisi qardaş ölkədə çox laqeyd qarşılandığını və ona nə səfirlik, nə də xəstəxana kollektivi tərəfindən heç bir diqqətin göstərilmədiyini bildirdi: "Sol ayağım 8 ay ərzində 5 dəfə əməliyyat olundu, ümumilikdə 42 saat narkozda qalmışam. Bu da Türkiyədə mənə göstərilən laqeydliyin nəticəsi idi. Bu əməliyyatlardan sonra yaxşılığa doğru heç nə dəyişmədi, daha pis oldu və mən yatağa məhkum oldum".

Tutu xanım indi ümidini itirməyib və altıncı əməliyyata hazırlaşır: "Əməliyyatdan sonra ümid edirəm ki, yeriyə biləcəyəm. Ancaq bu əməliyyat üçün lazım olan məbləği tapa bilməsəm, mənə yardım olunmasa vəziyyətim daha da pis olacaq. Hərəkət qabiliyyətimi itirmişəm, qızımın məktəbinə, iclaslara gedə bilmirəm. Mən ən azı qızıma görə sağalmalı, ayağa durmalıyam. Mən Qarabağ veteranı kimi dövlətdən pul almıram. Yalnız əlilliyə görə 50 manat müavinət alıram. Bu günə kimi dostlarımın və qardaşımın hesabına yaşamışam."

Qarabağ savaşı xatirələrindən danışan Tutu xanım deyir ki, Fərrux dağı ətrafında gedən döyüşlərdə 103 yaralı əsgəri atəş altından çıxarıb: "Bundan artığına gücüm çatmadı. Əlimə silah alıb vuruşmadım. Ancaq yaralı oğullarımızı xilas etmişəm. Murov dağında qar uçqunu altında yüzlərlə əsgərimiz qaldı. Qarı əllərimizlə qazıb onları çıxartmağa çalışırdıq. Barmaqlarımın ucu donmuşdu və indi də soyuq olanda həmin gizíltini hiss edirəm. Ancaq mən Qarabağ əlili deyiləm, əlil ola-ola Qarabağa getmiş bir qadınam. Təhsilimi, həyatımı yarımçıq qoyub cəbhəyə getmişəm. "

Rüxsarə Cumayevanın sözlərinə görə, əməliyyat nəzərdə tutulan vaxtda həyata keçirilsə, onun ayağa qalxmaq şansı var. "Mən dövlətimdən kömək istəyirəm ki, əməliyyatıma dəstək olub məni ayağa qaldırsın. Bircə qız övladım var, ona sahib çıxım. Bu əməliyyat mənim sonuncu şansımdır. Türkiyənin Maltəpə xəstəxanasında əməliyyat olmalıdır. Əməliyyat üçün 18 min manat lazımdır. Mart ayına kimi bu əməliyyat baş tutsa, mənim ayağa qalxıb, yerimək ehtimalım 90%-in üzərindədir. İndi 4 ayaqlı əsa ilə hərəkət edirəm. Əməliyyatım uğurla keçsə bundan da xilas olacağam".

Tutu xanımın qızı 13 yaşlı Rəqsanənin arzuları ilə anasını göz yaşlarına boğur: "Hər bir övlad kimi mən də anamı sağlam və ayaq üstə görmək istəyirəm. İnanıram ki, o sağalacaq və bunun üçün imkanı çatan hər kəsdən xahiş edirəm. Bu günə qədər keçirdiyi əməliyyatlar uğursuz olsa da, biz ümidimizi itirməmişik. Əgər o, Qarabağ savaşında bir qadın kimi bütün çətinliklərin öhdəsindən gəlibsə, bu əməliyyatı da keçməyə də özündə güc tapacaq. Azərbaycan dövlətinin rəhbərlərindən xahiş edirəm ki, bir ananı, Qarabağ veteranını bu vəziyyətdə qoymasınlar".

Rüxsarə xanım bizi yola salmaq üçün çox çətinliklə, dörd ayaqlı çəliyinə yaslanaraq ayağa qalxır, ümid dolu gözləri bizi yola salır. Biz isə ona, bu yazını oxuyan imkanlı və xeyirxah şəxslərin, dövlət qurumlarının kömək edəcəyinə ümid etdiyimizi deyib onun mənzilindən ayrılırıq.

Sonda Qarabağ qazisi Rüxsarə Cumayevaya yardım etmək istəyənlər üçün onun bank hesabını təqdim edirik:

Kapital Bank, 2 saylı Nəsimi rayon filialı
Vöen: 9900003611
Telefon: 012 440-15-54
Kod: 200123
Swift bik: AİİBAZ2X
M/Hesab: 0137010001944
S.A.A: Cumayeva Ruxsarə Bayraməli qızı
Hesab № 38010019441203449112

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# İkili vətəndaşlığın yaratdığı üstünlük və problemlər

## Qanunvericilikdəki dəyişiklik cinayət məsuliyyətini də nəzərdə tutur

**21-ci əsr sivilizasiyanın xüsusiyyətlərindən biri də, şübhəsiz, kosmopolit düşüncə fonunda mədəniyyət, elm, turizm, biznes faktoruna əsaslanmış inkişafdır. Lakin bunlarla paralel meydana gələn hüquqi maneələr də olur. Onlardan biri də vətəndaşlıqla bağlıdır.**

Məlum olduğu kimi, Azərbaycan qanunvericiliyi ikili vətəndaşlığa icazə vermir. Maraqlıdır, belə olan təqdirdə ölkə xaricində yaşayan azərbaycanlıların hansı problemləri meydana çıxır? Ümumiyyətlə, xarici ölkə vətəndaşlığını qəbul etmiş azərbaycanlı hansı hüquqlarından məhrum olur?

Suallarımızı cavablandıran vəkil Fariz Namazlı xarici ölkə vətəndaşlığını qəbul etmiş şəxsin bu barədə yazılı məlumat vermədiyi təqdirdə cinayət məsuliyyəti daşıdığını bildirdi: "Azərbaycan Respublikası vətəndaşlığı haqqında qanun"a 30 may 2014-cü ildə edilən dəyişikliyə görə, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Amma bu tarixdən əvvəlki vaxtlarda xarici ölkə vətəndaşlığı əldə etmiş Azərbaycan vətəndaşlarına bu hal şamil edilmir. Başqa ölkə vətəndaşlığını qəbul edən Azərbaycan vətəndaşı Azərbaycanın müvafiq qurumlarını bu barədə xəbərdar edir və Azərbaycan Respublikasının vətəndaşlığı haqqında qanuna görə, o Azərbaycan vətəndaşlığını itirir. Həmin şəxs gələcəkdə Azərbaycana gələrsə, xarici vətəndaş kimi gəlməlidir. Əcnəbi şəxslərə aid olan hüquq və vəzifələrdən istifadə edərək ölkəyə gəlib fəaliyyət göstərə bilərlər".




Mövzu ilə bağlı fikirlərini bildirən millət vəkili Zahid Oruc isə məsələnin siyasi tərəflərinə şərh verdi: "Bu illər ərzində dediyiniz mövzu ətrafında bir çox suallar verilib və hamısına hüquqi əsaslı cavablar bildirilib. Bəli, bir çox ölkələrdə ikili vətəndaşlıq var və bu dövlət siyasəti kimi tətbiq olunur. Bundan da faydalar götürülür. Məsələn, Rusiyada ikili vətəndaşlıq var və bunun seçilməsinə səbəblər çoxdur. Bunlardan biri demoqrafik göstəricilərlə bağlıdır. Belə ki, ailə üzvlərindən biri Rusiya vətəndaşı olan şəxslər xaricdə yaşamalarına rəğmən, Rusiya vətəndaşı olur. Qanunvericiliklərində edilmiş yeni dəyişikliyə görə, hətta rus dilini bilənlər də vətəndaşlığa qəbul edilə bilər. Bu fonda vətəndaşlığın tətbiqindən həm iqtisadi, həm də sosial və bir sıra başqa xarakterli hüquqi imtiyazlar əldə olunmuş olur. Ancaq Azərbaycan nə üçün buna getmədi? Unitar quruluşlu ölkələrdə ikili vətəndaşlığın tətbiqi hansı fəsadlara yol aça bilər?

Nəzərə almaq lazımdır ki, ortada etnik və milli müxtəliflik var. Tutaq ki, ermənilər, ya ruslar. Onlar ölkə siyasətində vətəndaşlıq sayəsində hüquqlar qazandıqları halda öz ölkələri ilə münasibətlərində müəyyən rol oynayacaqlar. Bu və digər səbəblər fəsadlar arasında yer alır ki, buna görə də hesab edirəm Azərbaycan üçün ikili vətəndaşlıq məqbul deyil. Ona görə ikili vətəndaşlığın əleyhinə olaraq bu fikirləri parlamentin tribunasından da səsləndirmişəm. Xarici ölkə vətəndaşlığını qəbul edən kəslər də bəri başdan bilməlidirlər ki, öz ölkələri ilə hüquqi münasibətlərini çətinləşdirəcəklər. Ümumən insanlarımızın ölkə vətəndaşlığından çıxması mənəvi baxımdan məni çox narahat edir".

Miqrantlara Hüquqi yardım Mərkəzinin rəhbəri Əlövsət Əliyev isə xarici ölkə vətəndaşlığını qəbul etmiş azərbaycanlıların əslində daha yüksək hüquqlara malik olduğunu söylədi: "Birincisi ona görə ki, neçə ölkənin vətəndaşıdırsa, həmin ölkələrin hamısında icazəsiz yaşamaq və işləmək hüququ əldə edir. Eyni zamanda həmin ölkələrin vətəndaşları hansı ölkələrə vizasız gedə bilirlərsə, o da həmin ölkələrə sərbəst getmək hüququnu əldə edir. Lakin elə şəxslər var ki, onlar ikinci ölkənin vətəndaşlığını əldə edən zaman bunu gizlətməyə çalışır və ya bundan qədərincə faydalanmırlar. Buna görə də bəzən problemlər yaşayırlar. Məsələn, Azərbaycanda belə bir təcrübə var ki, məmurlar müəyyən edəndə ki, şəxs eyni zamanda Rusiyanın və Azərbaycanın vətəndaşıdır, dərhal onun Azərbaycan vətəndaşlığını təsdiq edən sənədi fəaliyyətsizləşdirəcəklərini bildirilər. Bu isə qanunsuzdur. Yəni bu sahədə qanunvericiliyin yaratdığı problemlər var. Məmurlar da bundan faydalanır və ikili vətəndaşlığı olanların vəziyyətini ağırlaşdırır".

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 242 (5951) 29 oktyabr 2014

**Sentyabrın 30-da, saat 11:00-da Nərimanov Rayon Məhkəməsində “Space” telekanalının “Etiraf” verilişinin aparıcısı, dələduzluq ittihamı ilə həbs olunan İlham Mirzəyevin işi üzrə məhkəmə davam etdiriləcək. İ.Mirzəyevin hüquqlarını vəkillər Xanlar Bayramzadə və İkram Abdullayev müdafiə edir.**

# İlham Mirzəyev dələduzluq əməllərini boynuna alıb...

## Mühakiməsi davam edən teleaparıcının saxlanılması necə həyata keçirilib...



Redaksiyamıza işdə adı zərərçəkən kimi keçən şəxslərdən biri olan Aynur Əhmədovanın məktubu və iş üzrə tərtib olunan ittiham aktı daxil olub. A.Əhmədova məktubunda İ.Mirzəyevin vergi cinayətlərinin araşdırılmamış qaldığını, talama cinayəti üzrə ona ittiham elan edilmədiyini qeyd edib. O, teleaparıcının məhkəmə qarşısına xırda maddələrlə çıxarılmasına diqqət çəkərək bildirir ki, işə baxan hakimlə İlham Mirzəyevin çox yaxşı münasibətləri var və buna qədər də bu hakim teleaparıcının iddiası əsasında qəzetlərə qarşı qərar qəbul edib. Zərərçəkənin redaksiyamıza təqdim etdiyi ittiham aktında yer alan epizodları oxuduqca teleaparıcının qəbuluna gedən və əli hər yerdən üzülmüş, övlad həsrətində olan insanların pullarını necə mənimsəməsi, sadəcə, ikrah doğurur...

Baş prokurorun 1-ci müavini Rüstəm Usubovun təsdiqlədiyi ittiham aktından seçmələri təqdim edirik:

(əvvəli ötən sayımızda)

İlham Mirzəyevin həbsində iştirak edən əməliyyatçı nə deyib?

Cinayət işi üzrə şahid qismində dindirilmiş Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı Kərim Əlimərdanov ifadəsində göstərib ki, 10 aprel 2014-cü il tarixdə A.Əhmədova BMCMİ-nə şikayət ərizəsi ilə müraciət edərək, Bakı şəhəri, Nərimanov rayonu ərazisində fəaliyyət göstərən “İlhaMed” tibb mərkəzində psixoloq işləyən İlham Mirzəyevin qəbulunda olarkən, İlham Mirzəyevin ona xoşuna gələn oğlanla münasibətlərində şirinlik yaradacağına, onları bir-birilərinə qovuşduracağına, nəticədə, evlənəcəklərinə söz verdiyini və bu işin həlli üçün ondan 3 min avro pul istədiyini bildirib. O, 9 aprel 2014-cü il tarixdə bu məqsədlə həmin tibb mərkəzinə gedərək İlham Mirzəyevə 1600 avro pul və iki ədəd fotoşəkillərini verdiyini, İlham Mirzəyevin 3 min avro pulu sabahı gün, yəni 10 aprel 2014-cü il tarixdə çatdırılmasını söylədiyini, lakin sonradan İlham Mirzəyevin onu yalandan aldadaraq pulunu ələ keçirməsini başa düşdüyünü bildirib və İlham Mirzəyevin barəsində qanuni tədbir görülməsini xahiş edib. Həmin tarixdə əməliyyatçı vətəndaşın müraciətinə əsasən məlumatın yoxlanılması məqsədilə əməliyyat-axtarış tədbirinin keçirilməsi ilə bağlı raportla BMCMİ-nin rəisinə məruzə edib və rəhbərlik tərəfindən əməliyyatın keçirilməsinə dair qərar qəbul olunub.

“İlhaMed” tibb mərkəzinin direktoru İ.Mirzəyevin cinayət əməlinin ifşa edilməsi məqsədi ilə ərizəçi A.Əhmədova tərəfindən ona verilməsi üçün hal şahidlərinin iştirakı ilə A.Əhmədovanın şəxsi vəsaitindən olan 14 ədəd 100-lük avro pul əsginazları seriya və nömrələri yazılmaqla və kserosurətləri çıxardaraq A.Əhmədovaya verib. Ərizəçiyə əməliyyat-axtarış tədbirinin planına uyğun necə hərəkət edəcəyi izah olunub, bundan sonra həmin gün, yəni 10 aprel 2014-cü il tarixdə saat 15:30-da əməliyyat qrupunun üzvləri, dəvət olunmuş hal şahidləri və ərizəçi ilə birlikdə Bakı şəhəri, Nərimanov rayonu, İbrahimpaşa Dadaşov küçəsi 57 ünvanında fəaliyyət göstərən “İlhaMed” tibb mərkəzinin qarşısına gəliblər. Əməliyyat planına uyğun olaraq A.Əhmədova “İlhaMed” tibb mərkəzinə daxil olub, girişlə üzbəüz yerləşən İlham Mirzəyevin otağına keçiblər. Ərizəçi A.Əhmədovanın deməsinə görə, İ.Mirzəyev ondan qalan 1400 avro pulu həmin gün çatdırılmasını istəyibmiş. Təxminən 8-10 dəqiqə sonra A.Əhmədova İ.Mirzəyevin otağından bayıra çıxıb və kənardan dayanıb müşahidə aparan əməliyyat qrupunun üzvlərinə artıq əvvəlcədən seriya və nömrələri yazılmaqla əməliyyat tədbirində istifadə edilməsi məqsədilə ona təqdim olunmuş pulları İ.Mirzəyevə verməsini şərti işarə ilə xəbər verib.

Bundan sonra əməliyyat qrupunun üzvləri dəvət olunmuş hal şahidlərinin və ərizəçi A.Əhmədovanın iştirakı ilə İ.Mirzəyevin iş otağına daxil olublar. Əməliyyat qrupunun üzvləri xidməti vəsiqələrini göstərib özlərini təqdim ediblər və İlham Mirzəyevi əməliyyat-axtarış tədbirinin keçirilməsi haqda qərarla tanış ediblər.

Sonra İ.Mirzəyevə vətəndaş A.Əhmədovanın onun barəsində Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə ünvanladığı şikayət ərizəsi əsasında əməliyyat tədbirinin keçirilməsi barədə məlumat verilib və ondan A.Əhmədova ona müraciət edib-etmədiyini, bu vətəndaşlardan hansısa məbləğdə pul alıb-almadığını şifahi soruşublar. Və ona təklif ediblər ki, əgər A.Əhmədovanın ona hansısa məbləğdə pul vəsaiti veribsə, həmin pulları təqdim etsin. İlham Mirzəyev əməliyyat-axtarış tədbirinin keçirilməsi haqda qərarla tanış olub təklifləri dinlədikdən sonra bildirib ki, bəli, həqiqətən də, A.Əhmədovanı tanıyır, bu xanım əvvəllər 2-3 dəfə “İlhaMed” tibb mərkəzinə gəlib və A.Əhmədova şəxsən onun özünə psixoloji yardım üçün müraciət edib. İlham Mirzəyev bildirib ki, əvvəlki dəfələrdə A.Əhmədova onun qəbulunda olarkən göstərdiyi psixoloji yardıma görə hər dəfə direktoru olduğu tibb mərkəzinə 50 manat pul ödəmiş, həmin gün də, növbəti dəfə qəbuluna gəlmiş və bir qədər əvvəl iş otağında A.Əhmədova gələcəkdə göstərəcəyi psixoloji yardım xidmətinə görə ona 1400 avro pul verib. Təkliflərinə əsasən İlham Mirzəyev iş otağında əyləşdiyi stolun sağ tərəfindəki dördgözlü siyirtmə şkafın yuxarıdan ikinci gözünü açaraq oradan 14 ədəd 100-lük avro pul əskinazlarından ibarət cəmi 1400 avro məbləğində pulları təqdim edib və bildirib ki, bu pullar bir qədər əvvəl A.Əhmədovanın ona verdiyi pullardır.

Əməliyyat-axtarış tədbirinin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi başa çatdıqdan sonra araşdırma zərurəti ilə bağlı cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin və iş üçün əhəmiyyətli digər halların müəyyən edilməsi məqsədilə hadisə yerinin mühafizəsinin təmin edilməsi üçün tibb mərkəzinin direktoru İlham Mirzəyevin iş otağının qapısı kilidlə bağlanıb və möhürlənib. Sonra İlham Mirzəyev araşdırma zərurəti ilə əlaqədar izahat verməsi üçün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə dəvət olunub. İlham Mirzəyev yazdığı izahatında göstərib ki, həqiqətən də bir gün əvvəl Əhmədova ona 1600 avro pul və özünün və yaxın münasibətdə olduğu şəxsin fotoşəkillərini verib. İlham Mirzəyev iki ədəd fotoşəkilləri və 1600 avro pulları təqdim edə biləcəyini izahatda göstərib.

Bundan sonra hal şahidlərinin iştirakı ilə İlham Mirzəyev 2 ədəd 500-lük, 4 ədəd 100-lük və 5 ədəd 50-lik avro pul əsginazlarından ibarət cəmi 1600 avro pulları və ərizəçi A.Əhmədovanın və bir nəfər kişi cinsinə mənsub şəxsin iki ədəd rəngli fotoşəkillərini təqdim edərək bildirib ki, həmin pulları və iki ədəd rəngli fotoşəkilləri A.Əhmədova bir gün əvvəl, yəni 9 aprel 2014-cü il tarixdə sevdiyi oğlanla şirin münasibətlərini düzəltməsi üçün ona verib. Sonda İlham Mirzəyevin təqdim etdiyi 1600 avro pullar və iki ədəd rəngli fotoşəkillər ayrı-ayrı kağız zərflərdə qablaşdırılıb möhürlənərək götürülüb. Bu barədə protokol tərtib olunub, protokol iştirakçılara ucadan oxunub, heç bir şikayət, təklif daxil olmamış və iştirakçılar protokolun doğruluğunu imzalarla təsdiq ediblər. Cinayət işi üzrə şahid qismində dindirilən Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Camalov Rövşən Məhərrəm oğlu və Səfərov Emil Nizami oğlu, şahid K.H.Əlimərdanov da eyni məzmunlu ifadə veriblər.

Bununla da İ.Mirzəyev haqda ittiham aktından epizodların dərcini yekunlaşdırırıq. İş üzrə məhkəmə prosesindən reportajlarımız olacaq. Bizi izləyin.

❑ E.MƏMMƏDƏLİYEV

---

# 3 min versən, sevəcək...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Azərbaycanın özü qədər məzəli ölkə olmasını sübut etməyə ehtiyac yoxdu. Hər addımda, hər sahədən biri başını çıxarıb nələrsə deyir adama. İnsanın təəccüb hissini itirməməsi gözəl bir şey olsa da, Azərbaycanda səni bu lüksdən tamamilə məhrum edirlər. Çünki insanımız bir-birini şoka salmaqda heç bir sərhəd tanımır.**

Bir tanışım yeniyetməlik yaşına çatan övladının bəzi davranışlarından əziyyət çəkdiyi üçün onu uşaq psixoloquna aparmışdı. Uşaq ərköyünlüyünü aradan qaldırsın, valideynlərini anlasın-filan deyə. Əlqərəz, bəh-bəhlə reklam olunan uşaq psixoloqlarından birinin yanına getdi bir neçə kurs. Nəticə olmadı təbii. Amma günlərin bir günü bu valideyn gördü ki, pənah gətirdiyi psixoloq uşağına yekə bir restoranda ad günü keçirib, medianı, manıs tayfasını da çağırıb ora. Biri burdan partapart şəkil çəkir, o biri bunları kameranın qabağına qoyub, “dünyaya bir daha gəlsəydiniz, yenə psixoloq olardınız” tipli suallar verir. O psixoloqun uşağı da nazlanır ki, nazlanır kameranın qabağında... Yəni, camaat uşağını yola gətirsin deyə bunun yanına gəlir, ətək-ətək pul tökür. Bu da həmin pulları götürüb hansısa dəbdəbəli restoranda “tusovka” keçirir. Özünə umac ova bilməyənlərin məmləkətində buna təəccüblənək, ya yox?

“Yeni Müsavat” qəzetində hər gün həbsdəki ekstrasens İlham Mirzəyevin cinayət işi ilə bağlı silsilə materiallar yayımlanır. Oxuyanda tüklərin biz-biz durur. İnsanların cahilliyi, savadsızlığı ildən-ilə azalmaq əvəzinə artır, zarafat deyil. “Meymunu düşünmə, əks halda arzun həyata keçməyəcək” misalı lotular bunları aldadır, pullarını alır, sonuncuların isə səsi də çıxmır. Şoka girirsən: əllərində ən bahalı telefonlar, bütün gün internetdədilər, Allah heç qoymasa dünyanı izləyirlər. Amma nəticə sıfır: falçı, ekstrasens qapısındadılar. Cinayət materiallarından bir detal: qız gəlib ekstrasensin yanına, sevdiyi bir oğlanın sevgisini qazanmaq üçün dil tökür. Sonuncu da deyir ki, bəs mənə öncə 3 min manat gətirib verəcəksən, sonra nə bilim nə olacaq, ardınca oğlan sənə bağlanacaq... Yazını oxuyan güclü cinsin nümayəndələrindən biri qəhqəhə çəkib gülür: “Bax, o qızın ağlı həqiqətən olmayıb. 3 mini İlhamın yerinə elə həmin oğlana versə, oğlan mələşə-mələşə onu sevərdi...” Zarafat olanda nə olar, həqiqət payı yoxdumu?

Ya da başqa misal. O gün bir gözəllik mərkəzi Allah heç qoymasa pulsuz kampaniya keçirirdi. Daimi müştərilərdən 10 nəfər qadının nömrəsini alıb, onları pulsuz seansa dəvət etmişdilər. Doğru, pulsuz pendir ancaq siçan tələsində olur, bunu bilirik. Amma gedənlər danışır. Gediblər, bir saat növbədə gözləyiblər. Nəticədə bir kosmetoloq bunları qəbul edib. “Ay çox qocalmısan, yoldaşın səni bəyənməyəcək” tipli boşboğazlığın fonunda məlum olub ki, sən bunların məhsullarından alıb, 10 ay kurs keçməsən bədbəxt olassan. Kursun məbləği də... bərk dayanın 2800 manat... Kampaniyanı da, reklamı da, müştəri cəlb etmənin üsullarını da anlamaq olar. Amma bir yerə qədər. Azərbaycandakı qədər ucuz promosyon, reklam kampaniyalarını dünya görməyib. Həqiqətən promosyon adına təhqir sayılır bunların etdikləri.

Uşaq sadəlövhlüyünü qoruyub saxlamaq gözəldir. Bu ölkə bu şansı da əlimizdən alıb. Artıq hamı gözümə cin-əcinnə kimi görünür...

YENİ MÜSAVAT
N 242 (5951) 29 sentyabr 2014

# Toylarda da israfçılığa "müharibə" elan olundu

## Siyavuş Novruzovun anonsunun ardınca yas məclislərində olan qadağanın şadlıq evlərinə tətbiqinə başlandı, nişan və sünnət toyları da yasaqlanır; bəzi restoranlar hökumətin tövsiyəsinə əməl edir, bəziləri isə göstərişə hələlik məhəl qoymurlar...

**Hökumətin yas məclislərində ehsan süfrəsinə müdaxiləsi toy mərasimlərinə də şamil olunmaqdadır. Əslində əhalinin gözləntisi ehsan süfrələrindən çox, şadlıq evlərindəki menyuya "əl gəzdirmək" idi. Çünki yas mərasimlərində ehsan könüllü şəkildə verildiyi halda, toylarda restoranlar məcburi menyu təqdim edirlər.**

Bu halda vətəndaşın seçim imkanı olmur. Odur ki, son vaxtlar bu iki problemin gündəmə gəlməsi, müzakirələrin başlanmasının ardınca restoranlara da əl qoyulub. Bəzi şadlıq saraylarında israfçılığa qarşı tədbirlər icra olunmağa başlanıb.

Bu haqda Axar.az saytı da yazıb. Məlumatda bildirilir ki, bəzi şadlıq evlərində standart menyu ləğv olunmaq üzrədir. Bu vaxta qədər restoranlar müştərilərə konkret menyu təklif edirdisə, indi vətəndaşın sifarişi əsasında süfrə hazırlanır.

Sayt yazıb ki, hökumətin verdiyi tövsiyələrə və qeyri-rəsmi xəbərdarlıqlara əməl edən bir sıra restoranlar vətəndaşların istəklərinə uyğun sifariş qəbul edirlər. Bundan sonra müştəri arzuladığı menyunu sifariş verərək toy mərasimi təşkil edə biləcək.

Ancaq bu tövsiyəyə hələlik bəzi şadlıq evləri riayət etməkdədir. Yəni, bir çox şadlıq evlərində israfçılıq hələ də davam edir. Güman olunur ki, toylarda israfçılığa qarşı mübarizə bütün şadlıq saraylarını əhatə edəcək.

Hətta bir müddət əvvəl israfçılıq edən restoranların cərimələnəcəyi haqda məlumat var idi. Belə görünür ki, tədricən qadağalara əməl etməyə hazırlaşırlar. Yada salaq ki, YAP-çı deputat Siyavuş Novruzov da yas mərasimlərindən sonra toylara da bəzi məhdudiyyətlərin qoyulacağını bildirib. "Bütün bunların qarşısı alınmalı idi. Hələ bir qədər gecikdirilib. Bundan sonra toylara keçmək lazımdır. Belə ifrat dərəcədə toy da ola bilməz.

Toy mərasimləri də ailə xoşbəxtliyinə deyil, restoran müdirlərinə işləyir. Təbii ki, toy mərasimlərində də tənzimlənən qiymətlər qoyulmalıdır. Hər kəs fərqli qaydada qidalanır, biri pəhriz saxlayır, digəri ət yemir. Hər kəsə istəyi ilə təklif edilsə, qiymətlərdə tənzimləmə prosesi gedəcək" - deyə az əvvəl deputat toy mərasimlərinin dövlət nəzarətinə alınacağının anonsunu verib. Bütün bu deyilənlərin şahidi olmaq üçün bəzi restoranlarda qiymətlərlə maraqlandıq.

Məsələn, "Altun Saray" şadlıq evindən öyrəndik ki, menyu vətəndaşın sifarişinə uyğundur, heç bir israfçılıq olunmur. Restorandan deyildi ki, müştəri hansı yeməkləri istəyibsə, ondan əlavə süfrəyə nemət gətirilmir.

"Movida-Plaza", "Niaqara", "Ay işığı", "Xəmsə" və s. məşhur restoranlar məhdudiyyət barəsində xəbərdar olmasa da, ümumi qərar olacağı halda riayət etməyə hazırdırlar. Şadlıq evlərinin çoxu o fikirdədir ki, onlar israfçılıq etmirlər.

"Röya", "Azəri", "Zümrüd" şadlıq sarayları isə həm vətəndaşın istəyinə uyğun sifariş qəbul edir, həm də öz menyusunu təklif edir. Eyni zamanda "Çanaqqala", "Su sonası" kimi restoranlar da sifariş qəbul edirlər. "Ülvi", "Hissa", "Dan ulduzu" şadlıq evlərində isə müəyyən güzəştlər var. Bu da müştəri ilə danışıqdan asılıdır.

Restoranlar ən əsası Milli Məclisin payız sessiyasını gözləyirlər. Çünki parlamentin ilk iclasında toylarda israfçılıq problemi qaldırılacaq. Həmçinin, ad günü, nişan mərasimi və s. tədbirlərin də məhdud çərçivədə keçirilməsinə müdaxilə olunacaq.

Mətbuatda yayılan xəbərlərə görə, restoranlara qeyri-rəsmi olaraq göstəriş verilib ki, bundan sonra təmtəraqlı nişan mərasimləri və sünnət toylarının keçirilməsindən imtina etsinlər. Habelə, deputat İlham Məmmədov deyib ki, ictimai qınağın toy mərasimlərinə də şamil olunmasını istəyir: "Bunun üçün mətbuatın xüsusi rolu olmalıdır. Bu gün toylarda baş verən israfçılıq yas mərasimlərimizdəkindən dəfələrlə çoxdur. İstər imkanlı, istərsə də imkansız adamların stollarının üstünə eyni tərtib olunmuş menyular düzülür. 6-7 cür salat, 10 cür soyuq qəlyanaltı, vaxtı keçmiş, müxtəlif bakteriyalar mənbəyi olan qidalar və bu qidalardan zəhərlənmə təhlükəsinin çox olması dəhşətli bir səhnəni ortaya qoyur".

Şəhərdə buna dair kiçik bir sorğumuza da birmənalı cavab aldıq. Şəhər sakinləri birmənalı şəkildə bu ideyanı dəstəkləyirlər. Vətəndaşlar şadlıq evlərində soyğunçuluqdan şikayətlənirlər. Paytaxt sakini Nurəddin Zamanov deyir ki, oğluna toy edəndə menyudan müəyyən şeylərin çıxarılmasını istəyib:

"Mənə dedilər ki, lap imtina etsən də, qiymət dəyişmir. Tutaq ki, menyudan salat və suların bəzilərin ixtisar edirsən. Ancaq yenə də 35 manatdan hesablanır. Ondansa, qalması məsləhətdir. Bu, özbaşınalıqdır. Ona görə nə qədər tez dəyişiklik etsələr, bir o qədər toy edən adamlara xeyri dəyər. Heç olmasa Məhərrəmlikdən sonra başlasınlar. Camaat da ikiəlli dəstəkləyər. Çünki yasdan çox, toydan narazılıq var".

Kəmalə Seyidova adlı Bakı sakini restoranların kimlərə aid olmasını xüsusi vurğuladı: "Qadağa qoyan da, israfçılıq edən də eyni adamlardı. Bakıda şadlıq evləri bazarda arabaçı işləyənin, yaxud məktəbdə müəllimlik edənin deyil ki?!

Yenə həmin deputatlar, prokurorlar, nazirlər, müavinləridir. Onlar işlədirlər. Bir-iki iş adamının restoranı var, o da yuxarıya bağlıdır. Özləri yaratdığı şəraiti indi düzəltmək istəyirlər. Necə ki, hər yerdə korrupsiya varıydı, ASAN xidmət açdılar. Bu da ona oxşayır. Öz yaratdığı problemi həll etmək istəyir. Təki olsun, nə deyirik...".

❑ **E.SALAMOĞLU**

**Fotolar müəllifindir**











**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

**Elə gün olmur ki, dilimizdə, mətbuatda Çinlə bağlı maraqlı xəbərlər, məlumatlar dərc edilməsin. Amma bunları toplu halında oxuyanda ortaya ilginc bir dosye çıxır...**
**Bu da Çin haqqında bilmədiklərimizin toplusu. Pekində hava elə çirklidir ki, bir gün boyunca bu şəhərdə nəfəs almaqla gündə 21 ədəd siqaret çəkmək arasında elə də böyük fərq yoxdur. Çox vaxt şəhər tüstü buludunun altında olanda insanlar da maskalarla gəzməyə məcbur olur.**



# "Kitayski" dünyanın iç üzü

## Çin və çinlilər barədə bilmədiyimiz gerçəklər; onlar, demək olar ki, hər şeyi saxtalaşdırmağın yolunu öyrəniblər...

Çində yaşayan xalqın təxminən 100 milyonu gündə 1 dollara öz keçimini təmin etməyə çalışır. Çinlilər hər il təxminən 4 milyon pişik yeyir. Onların it yediyi məlum hadisədir. Son illərdə çinlilər itləri yeməkdən daha çox, onlara digər dünya insanları kimi ev heyvanı olaraq baxmağa meyllənmiş durumdadırlar. Çinlilər yemək yemək üçün hər il 45 milyard yemək çubuğu istifadə edirlər.

Ketçupun tərkibində pomidor tapılmaz. Ketçup bir balıq sousu olaraq ilk dəfə çinlilər tərəfindən istehsal olunub. Çində yaz aylarında yumurtalar kişilərin sidiyi ilə qaynadılır və bahar ləzzəti adı altında satışa çıxarılır!

Təxminən 30 milyon çinli Çində mağaralarda yaşayır. Ölkədə hər 30 saniyədən bir bir körpə qüsurlu doğulur. Burada həmçinin, xristianların sayında artım var, hazırda Çində 54 milyon xristian yaşayır.

### Polisdə it əvəzinə qaz yeyirlər

Çində bir uşaq sahibi olmaq zəruriliyi üzündən ildə 1 milyon qız dölü götürülür və minlərləsi küçələrə atılır.

Yaponya İkinci Dünya müharibəsi zamanı Çini zəhərli birələrlə bombalayıb.

Çində "PlayStation" istifadəsi qadağandır.

Çində "McDonalds" ilk mağazasını açarkən tətbiq dünyayla müqayisədə olduqca fərqli idi. Çinlilər həmişə avtomobillərində yeməklərini yedikləri halda, avtomobillərini park edib içəri girərək yeməklərini yeyirdilər.

Çində polislər polis bölmələrində it əvəzinə qaz əti yeyirlər; çünki qazlar insanlara görə uzağı daha dəqiq görə və reaksiya verə bilirlər.

### Ən uzun tıxac Çində olub

ABŞ-ın San-Francisko şəhərindəki hava çirkliliyinin üçdə biri Çindən qaynaqlanır və Çin sərhədlərindən şəhərə girir.

2009-cu ilə qədər Çində ibtidai təhsil məktəblərinin əsas sponsoru məşhur bir tütün markası idi.

Çin ən böyük oyuncaq istehsalçısı və ixracatçısıdır. Dünyada oyuncaqların 70 %-ni istehsal edir.

Çində bir zaman qıdıqlamaq bir işgəncə metodu idi - həm işgəncəni edən iz buraxmırdı, həm də adam özünə tez gəlirdi.

Dünya tarixində ən uzun yol tıxacı Çinin Şanxay şəhərində olub. 12 gün davam edən tıxacın uzunluğu 99 kilometr olub.

Dünyada yaşayan hər 5 insandan 1-i çinlidir...

1973-cü ildə ABŞ əhalisinin artması üçün Çindən 10 milyon çinli qadının ABŞ-a göndərilməsi təklif edilmişdir. Bu təklif ABŞ-ın rəsmi qeydlərində var. (Mənbə: Bloomberg)

Çində bir çox gənc qız gərdək gecəsindən əvvəl qızlıq pərdəsini əvvəlki halına çevirmək üçün 700 dollar ödəyərək əməliyyat olunur.

Çində bir ildə həyata keçirilən edam sayı dünya ilə müqayisədə dörd dəfə çoxdur.

Qatarda çalışanların başlarını dik tutmaları üçün boyunlarına doğru baxan bir iynə yaxalarına sancılır. Bu halda kimsə başını önə əyib, sağa - sola hərəkət etdirə bilməz.

Çinin Chongqing bölgəsində telefon asılılarının təhlükəylə üzləşməmələri üçün xüsusi bir yol salınıb.

Tualet kağızını 14-cü əsrdə çinlilər istehsal ediblər. O zamanlar tualet kağızları yalnız imperatorların istifadələri üçün idi.

Uçurtmalar ilk dəfə Çində ortaya çıxıb. O zamanlar düşmənləri qorxutmaq üçün istifadə edilirdi.

### İsti su içirlər, çubuq kəşf ediblər və...

Çinlilər çox hallarda özləri ilə termosda isti su və ya çay gəzdirirlər. Onlar soyuq qış günlərində, eləcə də bürkülü yay günlərində həmişə isti su içməyə üstünlük verirlər. Hətta Çin restoranlarına gedərkən masaya ilk gələn isti su olur.

Çinlilər isə yeməkdən əvvəl və sonra isti su içərək mədələrinin əziyyətə düşməsini əngəlləyirlər.

Çinlilər soyuq içkilər içərkən və ya soyuq qidalar yeyərkən daxili orqanların daha çox yığıldığına, mövcud problemləri daha da çətinləşdirdiyinə inanırlar. Yağlı tavanı soyuq suda yumağa çalışın. Yağlar donar və yapışar. Amma həmin tavanı isti suda yusanız, yağı asanlıqla təmizləyər.

Çinlilərin yeməklərini çox kiçik parçalar halında yeməl追rindən çubuq istifadə etdikləri aydın olur. Çində o vaxtlar yalnız zənginlər masada oturardılar. Xalqın əksəriyyəti qabları əllərində yemək yeyərdilər. Bir əlləriylə qablarını tutar, o biri əlləri ilə çubuq istifadə edərək bəslənərdilər. Sürətlə artan əhali üzündən yemək çətinliyi çəkən çinlilər önlərindəki yeməyi kiçik parçalar halında çoxaldaraq yeyirdilər. O zamanlar ağac çatinliyi səbəbilə də taxta istifadəsi məhdud idi. Masa istifadəsi buna görə çox çətin idi. Çubuqları fil dişindən və sümükdən hazırlayırdılar.

Çində Şanxay universitetinin alimləri özütəmizlənən paltar icad ediblər. Unikal texnologiya ilə hazırlanmış paltar üzərində olan ləkələri özü aradan qaldırır. Bunun üçün paltarı bir neçə saat gün işığına çıxartmaq kifayət edir. Funksional paltar bundan başqa, geyimdən çıxan tər və digər xoşagəlməz qoxuları da aradan qaldırmağı bacarır.

Çinli alimlər paltarın istehsal sirrini gizlətməyiblər. "Titan iki oksid" və azotun birləşməsindən əmələ gətirilən mürəkkəb maddəyə turşu neytrallaşdırıcısı olan trietilamin əlavə edilib və məhlul 12 saat ərzində qatışdırılıb. Daha sonra məhlula paltarın əsasını təşkil edən pambıq parçalar əlavə edilərək 100 dərəcə selsidə qatışdırılıb. Sonda əmələ gəlmiş materiala Günəş işığına həssas olan gümüş-yod hissəcikləri əlavə edilib.

Funksional paltarın sınaqları uğurla həyata keçirilib. Belə ki, çinli mühəndislər paltara narıncı boya ləkəsi salaraq gün işığına çıxarıb. 2 saat gün işığında qalmış paltarda boya ləkəsinin 71 faizi yoxa çıxıb. Paltar bir neçə dəfə sınaqdan keçirilib. Unikal geyim təkrar yuyulmadan sonra da öz funksionallığını itirməyib.

Yüngül sənaye sahəsində böyük inqilab etmiş alimlər artıq bir sıra iri parça və geyim istehsalçılarının marağına səbəb olub. Geniş istehsal prosesinə başlanılacağı təqdirdə paltarın isti yay aylarında həddən ziyadə tərləməkdən və gündəlik paltar dəyişməkdən əziyyət çəkən insanların yeni funksional paltarlara tələbatını artıracağı proqnozlaşdırılır.

### Saxta it, saxta ət və...

Pekin firması qida üçün "ağıllı çöp" ixtira edib. Bu çöpün xüsusi özəlliyi ondadır ki, yeyinti məhsullarının tərkibindəki zəhərli və zərərli maddələri xüsusi ötürücülü qurğu vasitəsi ilə müəyyən edir.

Yeməyin tərkibində zəhərli maddələr aşkar olunmadıqda çöpə quraşdırılmış qurğuda yaşıl işıq yanır, əks halda isə qırmızı işıq yanaraq xəbərdarlıq edir. Gələcəkdə tərtibatçılar qurğunun funksionallığını artırmaq barədə də düşünüblər.

Belə ki, qida çöpünün təkmilləşdirilməsi və yeməyin temperaturunu, koloriliyini müəyyən edə bilməsi üzərində iş gedir. Xatırladaq ki, Çində qida məhsullarının təhlükəsizliyi əsas problemlərdən biridir. Buna qədər 2008-ci ildə süd məhsullarının tərkibinə xüsusi maddənin normadan artıq qatılması səbəbindən xeyli sayda insan dünyasını dəyişmişdi.

Hər şeyin saxtasını çıxarmağa öyrəşən çinlilər indi də ətin üzərində işləyirlər.

Saxta yumurta qalmaqalı ilə gündəmə gələn çinlilər indi də ətin saxtasını hazırlayıblar. Belə ki, onlar donuz ətinin qiymətinin artması ilə əlaqəli olaraq saxtakarlığa əl atıblar. Saxta ət əldə etmək üçün onlar bişmiş toyuq ətini özəl kimyəvi vasitələr ilə qarışdırıblar. Nəticədə bir saat içində bu əti inək və ya donuz ətinə "çevir"ə bilirlər. Saxta ətin gerçəyinə bənzəməsi üçün onun içərisinə can ətindən hazırlanan biftek qoxusu verən maddələr də qatılıb.

Çinlilər demək olar ki, hər şeyi saxtalaşdırmağın yollarını öyrəniblər. Onların budəfəki hədəfi məşhur alman çoban itidir. Artıq bu itlərin də Çin versiyası var. Mövcud olan bütün markaların saxtasını hazırlayıb ucuz qiymətə dünya bazarına ixrac edən çinlilər dünya kubokuna da əl atıb. Gömrük əməkdaşları rəsmi olmayan saxta dünya kuboklarını yoxladıqdan sonra ölkədən çıxışına icazə verir.

❑ Sevinc TELMANQIZI

# Təbrizin bələdiyyə başqanından şok etiraf

## "Urmu gölü qurusa, Təbriz və Azərbaycanın digər şəhərləri boşala bilər"

**Urmu gölünün sürətlə quruması Güney Azərbaycandakı məmurları gec də olsa, hərəkətə gətirib. "Urmu gölü bizim canımız və ruhumuzdur" deyərək Urmu gölünün əhəmiyyətini diqqətə çatdıran Təbrizin bələdiyyə başqanı bu məsələyə toxunub.**



Doktor Sadiq Nəcəfi açıq şəkildə bildirib ki, əhali Urmu gölü məsələsinə həssas olmaqda haqlıdır və bizim hamımız bu məsələyə məsuliyyət hissi ilə yanaşmalıyıq: "Urmu gölü quruyarsa, Təbriz və Azərbaycanın digər şəhərlərində həyat olmayacaq. Urmu gölünün dirçəldilməsi sözdən əmələ keçməli və gölün canlandırılması əməliyyatına təcili olaraq başlanılmalıdır".

Məlumata görə, bələdiyyə başqanı, doktor Məhəmməd İbrahim Rəməzanini Urmu gölü işlərini təqib etmək üzrə məsul şəxs kimi təyin edib və ona bir sıra tapşırıqlar verib.

Uzun illər mübarizəyə baxmayaraq İran rejiminin laqeyd və qərəzli münasibəti nəticəsində artıq Urmu gölü qurumuş göl vəziyyətinə gəlib. Son zamanlar gölün qurumasından dolayı bölgəni gözləyən faciə yerli məsulların bəzisini dilə gətirib və bunun özü də böhranın nə qədər dərin olmasına əlavə sübutdur.

Yeri gəlmişkən, son günlər Güney Azərbaycanın müxtəlif bölgələri, xüsusi ilə böyük şəhərlər arası yollarında avtomobil qəzaları nəticəsində çoxsaylı insanın həlak olması ciddi narahatlıqlar yaradıb. Məlumata görə, Ərdəbilin imam cüməsi cümə namazı xütbələrində ABŞ və onun müttəfiqləri ilə birlikdə İraq və Suriyada apardığı əməliyyat və onların gizli planı kimi anlatdığı mövzudan danışıb. O həmçinin Ərdəbil vilayətində baş verən qanlı yol qəzaları və cəmiyyət arasında yayılan şayiələrdən söz açıb. Axund Seyid Həsən Amili ardı kəsilməyən və qanlı yol qəzalarına işarə edərək bildirib ki, "Ərdəbil vilayətinin parlament nümayəndələri və yüksək rütbəli məsulları yetəri qədər vəsaitlə indidən gələn il üçün proqramlar hazırlamalıdırlar. Ona görə ki, yol qəzaları nəticəsində çoxsaylı insan qurban gedir və bu məsələ ailələrin böyük nigaranlığına səbəb olur. Bunun qarşısı alınmalıdır".

İmam cümə ölkənin ümumi vəziyyəti ilə bağlı qayğısını da dilə gətirib. O bildirib ki, "düşmən cəmiyyət arasında şayiə yayaraq iqtisadi, siyasi və təhlükəsizlik sahələrində böyük zərbə vura bilər. Biz gələn il keçiriləcək parlament seçkiləri ərəfəsindəyik və indidən bəziləri bu vasitə ilə millətin birliyi və onların etimadına xələl gətirmək istəyir".

❑ Cavìd TURAN


















Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “E-Q” mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600